HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

*15 mart 2017-cı il*
*№005 (43)*

*yeni_yol@mail.ru* / İCTİMAİ QƏZET / “იენი იოლი” საზოგადოებრივი გაზეთი / *qəzet 17 iyun 2015-ci tarixdən nəşr olunur*

## BAKI-TBİLİSİ-QARS DƏMİRYOLUNUN İSTİSMARA VERİLMƏSİ APREL AYINA NƏZƏRDƏ TUTULUR

Azərbaycan hökumətinin məlumatına görə, Bakı-Tbilisi-Qars dəmiryolu nəqliyyat dəhlizinin tam şəkildə istismara verilməsi 2017-ci ilin aprelinə planlaşdırılır.

Məlumatda bildirilib: “Bakı-Tbilisi-Qars dəmir yolunun Gürcüstan sahəsində tikinti artıq başa çatdırılıb, dəhlizin türk sahəsi isə tamamlanma mərhələsindədir. Bakı-Tbilisi-Qars nəqliyyat dəhlizinin tam şəkildə işə düşməsi cari ilin aprelində gözlənilir”.

7 fevral 2007-ci ildə Gürcüstan, Azərbaycan və Türkiyə mövcud Tbilisi-Bakı magestralından istifadə etməklə dəmiryolu dəhlizinin yaradılması barədə hökumətlərarası razılaşma imzalamışdılar. Layihədə 68 kilometri Türkiyə, 30 kilometri isə Gürcüstan ərazisindən keçən 98 kilometrlik Qars-Axalkalaki dəmir yolunun tikintisi, habelə 183 kilometrlik Axalkalaki-Tbilisi sahəsinin yenidən qurulması nəzərdə tutulub.

Layihəyə Gürcüstan və Türkiyə arasında 4,2 kilometr uzunluğunda tunelin və Axalkalakidə




tunelin girişində Gürcüstanda mövcud olan təkər arabacıqlarının Avropa təkər arabacıqlarına dəyişdirilməsi məntəqəsinin tikintisi də daxildir. Nəqliyyat dəhlizinin Gürcüstan hissəsinin tikintisini Gürcüstana ümumi məbləği 775 milyon dollar olan iki güzəştli kredit ayırmış Azərbaycan maliyyələşdirir.

İlkin mərhələdə Bakı-Tbilisi-Qars dəmiryolu vasitəsilə ildə 5 milyon ton, gələcəkdə isə 15-17 milyon tona qədər yük daşınması nəzərdə tutulur.

## PREZİDENT KONSTİTUSİYANIN GENİŞ KONSENSUS ƏSASINDA FORMALAŞMASINA TƏRƏFDARDIR



Gürcüstan Prezidenti Konstitusiyanın əsaslı şəkildə müzakirə olunması prosesində bütün cəmiyyətin iştirak etməli olduğunu söyləyib. Bu barədə Georgi Marqvelaşvili Konstitusiyanın müzakirəsilə bağlı bütün xalqın iştirakının təmin edilməsi üzrə kampaniyanın təqdimatında bəyan edib.

Prezident parlamentin ölkənin əsas sənədinin əsaslı şəkildə müzakirə olunması təşəbbüsü ilə çıxış etdiyini bildirib.

Marqvelaşvili vurğulayıb: “Bu təşəbbüs bizim cəmiyyətimizin və ölkəmizin birləşməsi, möhkəmlənməsi və daha da güclənməsi üçün ilkin şərt ola bilər.

Lakin Konstitusiya prosesi necə bizim güclənməmizin səbəbi və məqsədi ola bilər? Yəqin ki, bu gündədək baş verənlər şəklində ola bilməz. Konstitusiyanın əsaslı şəkildə müzakirə olunması prosesinin cəmiyyətimizi birləşdirən zəmin olması üçün bizim hamımız bu prosesdə iştirak etməliyik.

Konstitusiya bizim hamımızı birləşdirir. Konstitusiyanın mətni həyacanlı – biz Gürcüstan vətəndaşıyıq sözlərilə başlayır. Ona görə də, bu sənədin real sənəd olması üçün onu gürcü xalqı imzalamalıdır”.

## 2016-CI İLDƏ GÜRCÜSTANA SƏRMAYƏ YATIRAN ÖLKƏLƏR ARASINDA AZƏRBAYCAN VƏ TÜRKİYƏ LİDERDİR

İlkin məlumatlara görə, 2016-cı ildə Gürcüstana birbaşa xarici sərmayənin həcmi 1,6 milyard dollar təşkil edib. Bu da 2015-ci ilin ilkin məlumatlarından 22%, dəqiqləşdirilmiş göstəricilərindən isə 5% çoxdur.

Milli Statistika Xidmətinin ilkin məlumatlarına görə, 2016-cı ilin ən böyük sərmayəçilərinin siyahısı belədir:

Azərbaycan 578 milyon dollar, Türkiyə 272 milyon dollar; Böyük Britaniya 121 milyon dollar; Niderland 95 milyon dollar; Çexiya 93 milyon dollar; Lüksemburq 79 milyon dollar; Panama 78 milyon dollar; ABŞ 45 milyon dollar; Kipr 38 milyon dollar.

Digər ölkələr isə 246 milyon dollar sərmayə qoyub. Ümumi sərmayənin 35%-i Azərbaycanın, 16,5%-i isə Türkiyənin payına düşür.




Siyahıdan Panama və Kipr kimi offşor zonaların da ən böyük sərmayəçilər sırasında olduğu görünür. Onlardan bir çox gürcü şirkətləri reinvestisiyanın həyata keçirilməsi üçün istifadə edirlər.

## ABŞ GÜRCÜSTANA 70 MİLYON DOLLAR HƏCMİNDƏ HƏRBİ YARDIM EDƏCƏK



Gürcüstan Baş Qərərgah rəisi Vladimir Çaçibaya ABŞ-ın bu il həyata keçirməyə başladığı yeni hərbi yardım proqramına əsasən Gürcüstana 70 milyon dollaradək maliyyə yardımı ayırması barədə məlumat verib.

General bəyan edib ki, Vaşinqtonda administrasiyanın dəyişməsi bu vəsaitlərin ayırılmasına təsir etməyəcək, Gürcüstanda yeni proqram Vazianidə yeni döyüş hazırlığı mərkəzinin tikilməsilə başlanacaq.

O, vurğulayıb: “Orada batalyon səviyyəsində hazırlıq keçiriləcək, bu, regionda ən böyük mərkəz olacaq”.

Vladimir Çaçibaya qeyd edib ki, təlim zamanı orada iriçaplı silahlardan istifadə etmək mümkün olacaq. O, bildirib ki, bir çox Avropa ölkələrində bu məhdud olduğundan Avropa ölkələrindən buraya gələcəklər. Avropalılar alternativ paliqonlar axtarırlar. Bu cür təlimlər Gürcüstan əhalisinə heç bir ziyan verməyəcək”.

Çaçibaya əlavə edib: “Bizim bütün səylərimiz Gürcüstanın müdafiə qabiliyyətinin möhkəmləndirilməsinə yönəldilib”.

Bir qədər əvvəl ABŞ-ın Gürcüstanda Almaniyandakı Hohenfels bazasına bənzər hərbi hazırlıq mərkəzi tikəcəyi barədə məlumat verilmişdi. Xatırladaq ki, bu bazada əsgərlər NATO missiyası tərkibində Əfqanıstana yola düşməzdən qabaq hazırlıq keçirlər.

## GÜRCÜSTANDA «QANUNİ OĞRULAR»A QARŞI QANUNVERİCİLİK SƏRTLƏŞDİRİLİR

Gürcüstan DİN “qanuni oğrular”a qarşı ölkə qanunvericiliyinin sərtləşdirilməsi təşəbbüsü ilə çıxış edib. Bu barədə martın 9-da nazirliyin mətbuat xidməti məlumat yayıb.

Bu qərar cinayətkarlıqla mübarizə üzrə idarələrarası koordinasiya şurasının növbəti iclasında qəbul olunub.

Nazirliyin bəyanatında deyilir: “İclasda “oğru dünyası” və “qanuni oğrular”a qarşı qanunvericiliyin dəqiqləşdirilməsini və sərtləşdirilməsini nəzərdə tutan Gürcüstan DİN-nin hazırladığı təşəbbüslər də müzakirə olunub. DİN yaxın gələcəkdə müvafiq qanunvericilik paketini təsdiqlənmək üçün hökumətə təqdim edəcək”.

Nazirlik qanunvericilik paketində məhz hansı dəyişikliklərin nəzərdə tutulması barədə məlumat verməyib.

Gürcüstanda “oğru dünyası”na aidlik cinayət hesab edilir və Gürcüstan Cinayət Məcəlləsi “oğru cəmiyyətinə üzvlüyə” görə beş ildən on ilədək azadlıqdan məhrumetmə cəzası nəzərdə tutur.

2 MİLLİ KİMLİK DAVASINA ÇİRKAB ATANLAR
TƏMİZLƏNMƏK GÖZƏLDİR 3
4 TÜRKİYƏNİ QƏBUL ETMƏK İSTƏMƏYƏN AVROPANIN MƏQSƏDLƏRİ
HOMOSOVETUKUSLARLA HOMOTEXNİKUSLARIN QOVŞAĞINDA 5
6 CƏMİYYƏTİMİZİN TANIMADIĞI TANIŞLARI
MOLLA PƏNAH VAQİF – 300 7



## MİLLİ KİMLİK DAVASINA ÇİRKAB ATANLAR

Afiq MUXTAROĞLU
amuxtaroglu@mail.ru

**Nə qədər bu mövzuya münasibət bildirməmək istədim, nə qədər özümü kənarda saxlamağa cəhd etdim olmadı, alınmadı. Mən susduqca və ya biz susduqca xalqımıza, milli dəyərlərimizə qarşı çıxış edənlərin sayı yağışdan sonrakı göbələk kimi artmağa başladı. Ürəkləri, beyinləri, ruhi aləmləri nifrətdən aşıb daşanlar gözəgörünməz bir dirijorun çubuğunun işarəsi ilə guya bir-birindən xəbərsiz hərəkətə keçib xalqımızın soykökü, tarixi, şəxsiyyətləri barədə ağıllarına gələni sayıqlamağa başladılar. Azərbaycanın siyasi bir anlayış olduğunu, burada yaşayan etnosları birləşdirən bir vasitə olduğunu kim bilmir ki? Sadəcə, insanın özünü necə adlandırmaq istəməsi, öz milli kimliyi barədə qərar verməsi maraqlıdır. Millətçilik başqa bir xalqı aşağılamaq deyil. Yerlə göyün arasında hər bir xalqın yaşamaq haqqı və özünü necə adlandırmaq haqqı var, o sıradan da Azərbaycanda yaşayan türklərin də enində-sonunda bu haqqı tanınmalıdır.**

Əvvəl-əvvəl Araz Əlizadə ağzını Allah yoluna qoyub türk etnosu, türkçülük haqqında çərənlədi. Ardınca qardaşı Zərdüşt Əlizadə bu mövzuda özünün cəfəngiyyatını cəmiyyətə sırımağa çalışdı. Onların bu çıxışları cəmiyyətin bütün təbəqələrindən olan insanlar tərəfindən təpki ilə qarşılandı, bir sözlə, onlar xalq tərəfindən layiq olduqları cavabı aldılar. Bu qardaşların, elə onların sülaləsinin türk düşüncəsinə, türkçülük dünyagörüşünə necə bir nifrət üstündə kökləndiyini uşaqdan böyüyə kim bilmir ki? Əlizadələrin kim olduqlarını sübut etməyə, onların çərənləmələrinə vaxt ayırmağa belə dəymir. Nədən ki, küslü olsa belə, qardaşının vəfat etmiş oğlunun yasında iştirak etməyən bir mənəviyyatsızdan bundan artığını gözləməmiz bizim sadəlövhlüyümüz, tünəkəliyimiz olardı. Canı-canından, qanı-qanından olan bir şəxsə son borcunu verməyi bacarmayan adamın xalqa bu cür münasibət bəsləməsi necə də təbii görünür. Potensial nifrət üstündə köklənmiş, şəri özünün vərdişinə çevirmiş Əlizadə sülaləsi barədə dediklərimiz, məncə, yetərlidir.

Ardınca Arif Rəhimzadə bu mövzuda öz çərənləmələri ilə gündəmə gəldi. O Arif Rəhimzadə ki, Azərbaycanın müstəqilliyi əleyhinə səs vermiş bir zatdır, o Arif Rəhimzadə ki, uzunmüddətli parlamentari kimi fəaliyyəti dönəmində peşəsi haqdan, ədalətdən danışanları susdurmaq olub. Əslində onun kim olduğunu, hansı yuvanın quşu olduğunu hamımız bilirik. Dərsini bilməyən uşaq kimi kiminsə ağzına baxan, ömrü boyu kiminsə çaldığına oynayan birisindən müstəqillik, azadlıq düşüncəsi gözləməyimiz əbəs deyilmi? Heç bu cür adamların söylədiklərinə əhəmiyyət vermək gərək deyil. O üzdən ki, bu cür adamların sözünü müzakirəyə çıxardıqda elə düşünəcəklər ki, ay can, ay can, gör necə böyük fikir səsləndirmişik, bütün cəmiyyət bizim fikrimizi müzakirəyə çıxarıb, atamızın goruna söysələr də bizdən danışırlar.

Nəhayət, bu mövzuda daşıdığı soyaddan, tutduğu elmi mövqedən, yaşından-başından utanmadan, çəkinmədən ən böyük quşu akademik Çingiz Qacar buraxdı. O boyda akademikin hansı düşüncəyə sahibi olduğunu anlatmaq üçün özündən bir palazqulaq sitatı burada verməkdən özümü saxlaya bilmirəm. Buyurun oxuyun və görün bizim elmimizi təmsil edən, Qacar soyadı ilə bir türk qövmünə bağlı olan zat türklərə necə nifrət edir:

"Ümumiyyətlə, mən "türk" sözünün də əleyhinəyəm. Mənim üçün ən əziz dil Azərbaycan dilidir. Gürcü bizə "tatar", rus ayrı söz deyir. Bu baxımdan da türklər bizə çox ziyan gətirib. Hətta, ruslardan da çox ziyan vurub. Misal üçün, türklərə görə Azərbaycan musiqisi yox olub. Bizim çox gözəl təsniflərimiz, rəqslərimiz var idi. Hamısı tamam itib gedib. İndi axmaq-axmaq, melodiyasız mahnılar oxuyurlar. Bütün alver də türklərin əlindədir. Marketlərdə hər şey türkcə yazılır. Biz tarixi mahnılarla yaşayırdıq. Ancaq indi o mahnıların çoxu yox olub. Mən istəyirəm ki, hər şey sırf Azərbaycan dilində olsun. Ona görə də keçmiş tariximizdə Azərbaycanın ən böyük düşməni türklər olub. Tarixə baxın, görün Osmanlı İmperiyası Təbrizi neçə dəfə dağıdıb? Təbrizi, Gəncəni türklər yox edib, dağıdıb. Osmanlı qoşunu Çaldıran döyüşündə minlərlə türkü öldürüb. İndi də həmin Çaldıran düzü Türkiyədədir, indiki Qars ərazisində yerləşir. Halbuki Çaldıran düzü bizim olub, orada yaşayan əhali indi də Azərbaycan dilində danışır". Bu, bizim akademikimiz hesab olunan birinin cəmiyyətə təlqin etmək istədikləridir. İndi özünüz dəyərləndirin, görün bizi elm adına kimlər təmsil edirlər. Adi məntiqə belə sığmayan cəfəng fikirləri dəyər kimi təqdim edənlərlə biz hara gedə bilərik, dünyanın amansızlıqlarına qarşı necə duruş gətirə bilərik?

**Və sonda bir-birinin ardınca bir neçə gün ərzində səsləndirilmiş bu iddiaları təsadüf kimi, təsadüfən üst-üstə düşən bir zad kimi qəbul etməmənizi rica edirəm. Xalqına çamur atan bu zatların öz ağızları ilə danışmadıqları, hansısa bir mərkəzin diqtəsi ilə hərəkət etdikləri qənaətimi səsləndirməyi də özümə borc bilirəm.**

## GÜRCÜ JURNALİST AZƏRBAYCAN XALQINDAN ÜZR İSTƏYİB

Gürcüstan vətəndaşı, "İmedi" telekanalının müxbiri Quram Roqava Azərbaycan Xarici İşlər Nazirliyinə məktubla müraciət edərək, adının "Azərbaycan Respublikasının işğal edilmiş ərazilərinə qanunsuz səfər etmiş əcnəbilərin siyahısı"ndan çıxarılmasını xahiş edib.

XİN-in mətbuat xidmətindən verilən məlumata görə, məktubunda Q.Roqava Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyinə və qanunlarına hörmət etdiyini və Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan ərazilərinə bilmədən və səfərin fəsadlarından əvvəlcədən məlumatlı olmadan səfər etdiyini bu səfərin Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə qarşı yönəlmədiyini vurğulayıb.

Səfərlə əlaqədar təəssüfünü ifadə edərək, Q.Roqava Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazilərinə səfərin heç bir halda Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin təşviqinə xidmət etmədiyini bildirib və işğal olunmuş ərazilərə qanunsuz səfərlə əlaqədar Azərbaycan hökuməti və xalqından üzr istədiyini qeyd edib.

Q.Roqavanın müraciəti müvafiq qaydada nəzərdən keçirilib və onun adının arzuolunmaz şəxslər siyahısından çıxarılmasına dair qərar qəbul edilib.

## DÖVLƏT NAZİRİ KETEVAN TSİXELAŞVİLİ GÜRCÜ DİLİ MÜƏLLİMLƏRİ İLƏ GÖRÜŞÜB



Gürcüstanın barışıq və vətəndaş bərabərliyi məsələləri üzrə dövlət naziri Ketevan Tsixelaşvili Marneuli şəhərində 8 mart beynəlxalq qadınlar günü ilə əlaqədar etnik azlıqların kompakt yaşadığı bölgələrin qeyri-gürcü dilli məktəblərində dövlət dilini tədris edən azərbaycanlı, gürcü və erməni müəllimələrlə görüşüb. Görüşdə nazirin Kvemo Kartli bölgəsi üzrə müşaviri Zaur Darğallı və jurnalistlər də iştirak edib.

K. Tsixelaşvili ilə görüşdə Gürcüstanda siyasət, vətəndaş inteqrasiyası, qadın müəllimləri narahat edən problemlər və onların həlli barədə müzakirə aparılıb.

Dövlət naziri qadınları 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edib, onlara çiçəklər və hədiyyələr təqdim edib. O, 2015-ci ildə Gürcüstanda etnik azlıqlarla bağlı strateji planın qəbul edildiyini nəzərə çatdırıb: "Biz etnik azlıqların siyasətə, iqtisadiyyatın müxtəlif sahələrinə cəlb olunmasını nəzərdə tutmuşuq. Bizim üçün etnik azlıqların keyfiyyətli təhsili vacib istiqamətdir. Biz diqqətimizi etnik azlıqların ana dillərinin öyrədilməsinə də yönəldirik. Biz Acarıstanda yaşayan üç minədək etnik abxaza öz ana dillərinin öyrədilməsi üçün şərait yaratmışıq. Abxazlar öz dillərini öyrənməkdə maraqlıdırlar. Biz Gürcüstanda fəaliyyət göstərən Azərbaycan məktəblərində oxuyan məktəblilərə ana dillərinin öyrədilməsinə də diqqət yetiririk. Etnik azlıqlar üçün öz ana dillərinin öyrədilməsi siyasəti bizim üçün vacibdir. Məktəblərdə təhsil alan azərbaycanlı şagirdlər paralel olaraq dövlət dilini də öyrənir, Gürcüstanın ali məktəblərinə imtahan verir və müxtəlif ixtisaslar üzrə təhsil alırlar".

Görüşdə iştirak edən müəllimələr iş xüsusiyyətləri, uğurları və qarşılaşdıqları problemlərlə bağlı müzakirələr apardılar.

## QARDABANİDƏ ŞAGİRDLƏR ARASINDA XÜSUSİ OLİMPİADA KEÇİRİLİB



Martın 4-də "Gürcüstanda Azərbaycanlı Müəllimlər İttifaqı"nın təşkilatçılığı ilə Qardabanidə azərbaycandilli məktəblərin şagirdləri arasında ümumi fənlər üzrə olimpiada keçirilib.

Yarışmaya 10 məktəbin – Qardabani 3 saylı, Vaxtanqisi, Candar, Nəzərli, Kosalı, Kalinino, Ağtəhlə, Qaracalar, Qaratəhlə və Muğanlı məktəblərinin VIII, IX, X və XI sinif şagirdlərindən ibarət 40-dan çox iştirakçı qatılmışdı. Olimpiadada şagirdlər ümumi fənlər üzrə (gürcü dili, Azərbaycan dili və ədəbiyyat, ingilis dili, iarix, riyaziyyat, coğrafiya, biologiya, kimya, fizika) 10 sualı cavablandırıblar. Qeyd edək ki, müsabiqədə iştirakçılara sualları cavablandırmaq üçün 30 dəqiqə vaxt verilmişdi. Suallar arasında Azərbaycan dili və ədəbiyyat fənninə geniş yer ayırılmışdı. Onu da bildirək ki, azərbaycandilli məktəblərin şagirdləri arasında keçirilən rayon səviyyəli olimpiada Gürcüstan Elm və Təhsil nazirliyinin, Qardabani rayon icra hakimiyyətinin və rayon bələdiyyəsinin dəstəyi ilə baş tutub.

"Gürcüstanda Azərbaycanlı Müəllimlər İttfaqı"nın təşkilatçılığı ilə həyata keçirilən olimpiadada 4 şagird qalib gəlib.

8-ci sinif üzrə Kosalı içtimai məktəbinin şagirdi Musa Musayev, 9-cu sinif üzrə Nəzərli içtimai məktəbinin şagirdi Almaz Məmmədov, 10-cu sinif üzrə Nəzərli içtimai məktəbinin şagirdi Məhəbbət Həsənov, 11-ci sinif üzrə Qardabani 3 saylı məktəbin şagirdi Tükəzban İsgəndərova müsabiqənin qalibi olublar.

Birinci yerə çıxan şagirdlərə təşkilat tərəfindən xüsusi diplom və qiymətli hədiyyələr təqdim edilib. Hədiyyələrin təqdimat mərasimində Qardabani rayon İcra başçısının müavini Dünyamalı Hacıyev, Bələdiyyə sədrinin müavini Rəfi Orucov, professor Mahmud Hacıxəlilov, məktəb direktorları, müəllimlər, ziyalılar və valideynlər iştirak ediblər.

Sonda olimpiadada iştirak edən şagirdlərlə xatirə şəkili çəkdirilib.

## GÜRCÜSTANDA KÖLGƏ PEŞƏLƏRİ

Bir milyon Gürcüstan vətəndaşı öz həyatını taksi sürücüsü, dayə, repetitor kimi məşğuliyyətlərlə təmin edir. Ölkənin maliyyə nazirliyinin hesablamalarına görə, ümumilikdə biznesin bu kölgə növlərində ildə 200-300 milyon lari fırlanır və bu peşə nümayəndələrinin hamısının formal olaraq gəlir vergisi ödəməyə borclu olmasına baxmayaraq, bu məbləğ heç bir vergiyə cəlb olunmur.

Hökumət xırda "kölgə biznesi"ni narahat etməyə cəhd etmir, çünki o, iqtisadi ağırlıqdan çox, sosial yük sayılır. Milli Statistika Xidmətinin məlumatına görə, Gürcüstanda iqtisadi cəhətdən fəal əhali 2 milyon nəfərə yaxındır. Onlardan 1 779 000 nəfərə yaxını çalışır. Bunun da 753 400 nəfəri dövlət strukturlarında və xüsusi biznes sahəsində işləyir, 1 milyon nəfərə yaxını isə özfəaliyyətlə məşğuldur. Əgər bu cür işləyən adamların sayını və 200-300 milyon larinin dövriyyəsini nəzərə alsaq, məlum olar ki, ölkə büdcəsi bir-iki milyon itirmir.

Özfəaliyyətlə məşğul olanlar arasında ən geniş yayılmış peşələrdən biri taksi sürücülüyüdür. Onların sayı 50 000-ə yaxındır, onlardan heç biri büdcəyə vergi ödəmir. Bəllidir ki, Tbilisi meriyası bu peşəni tənzimləyən və rəsmiləşdirən sxem üzərində işləyir. Taksiçilik etmək istəyənlər bir sıra şərtlərə uyğun gəlməli, istisna deyil ki, vergi də ödəməlidirlər.

Taksilərin sayının dəqiq statistikanın olmaması ucbatından onların saat tarifini, xərclərini, nəticədə gün ərzində taksi sürücüsünün nə qədər qazanmasını hesablamaq çətindir. Lakin məlumatlı adamlar deyirlər ki, Gürcüstanda taksiçilər orta hesabla gündə 20-30 lari qazana bilirlər. Elementar hesablama göstərir ki, bu biznes üzərində dövlət nəzarətinin yoxluğu üzündən büdcə milyonlar itirir.

Daha bir gəlirli və tamamilə nəzarət olunmayan peşə repetitorluqdur. Bu məşğuliyyət işsizlik şəraitində bir çox müəllim üçün əsas qazanc mənbəyidir.

Bu sahədə də hər hansı bir dəqiq rəqəm söyləmək çətindir. Çünki bu kimlər üçünsə əsas, digərləri üçünsə ikincidərəcəli qazanc mənbəyidir. Pedaqoqların çoxu repetitorluqla işdən sonra məşğul olurlar.

Fərdi məşğələlərin qiyməti çox fərqlidir. Bu fəndən, müəllimin nüfuzundan, onun ixtisasından, hətta Tbilisinin rayonundan, şagirdin harada hazırlanmasından asılıdır.

Bir çox müəllimlər üçün bu biznes o qədər sərfəlidir ki, onların bəziləri şagirdləri qəbul etmək üçün əlavə sahə kirayələməli olurlar.

Gürcüstanda tələbatın böyük olduğu peşələrdən biri də dayəlikdir. Onlara ayda 400 laridən 1000 lariyədək pul ödəyirlər. Hökumət bu biznesi də tənzimləmədiyindən, heç kim bu sferada nə qədər adamın çalışdığını və onun illik həcmi barədə dəqiq bilmir.

Sadalananlar Gürcüstanda mövcud olan özfəaliyyət peşələrinin yalnız bir hissəsidir. Digər peşələr də var: təmizlikçi, itgəzdirən, sənətkarlıq, torpaq becərən və kənd təsərrüfatı məhsulları istehsalçısı. Onlardan bir çoxu, xüsusilə illik gəliri 3000 laridən artıq olmayanlar rəsmi şəkildə vergidən azaddırlar.

Lakin özfəaliyyətlə məşğul olanların çoxu ildə 3000 laridən çox qazanırlar, nəzəri olaraq onlar vergi ödəməyə borcludurlar. Dövlətsə onlardan vergi tələb etməyə tələsmir.

Ekspert Soso Arçvadzenin sözlərinə görə, özfəaliyyət Gürcüstan iqtisadiyyatının Axilles dabanıdır.

Hazırladı Afayət AFİQ

## GÜRCÜSTAN "BOEİNG" VƏ "AİRBUS"LAR ÜÇÜN EHTİYAT HİSSƏLƏR İSTEHSAL EDƏCƏK

Tərəfdaşlıq Fondu və İsrailin Elbit Cyclone şirkətinin birgə layihəsi olan mülkü təyyarə hissələri istehsalı üzrə zavodun tikintisi fəal mərhələyə keçib. Tərəfdaşlıq Fondunun məlumatına görə, tikinti prosesi üç mərhələdən ibarət olacaq. Plana əsasən, müssisə bunasının tikintisi və onun avadanlıqlarla təchiz olunması 2017-ci ilin sonunadək davam edəcək, zavodun sertifikasiya prosesini isə Boeing şirkəti 2018-ci ilin iyununda başa çatdırmalıdır.

Müəssisədə hazırlanacaq məhsulların istehlakçıları aviasiya sənayesinin Boeing, Airbus, Bombardier və bu kimi nəhəng oyunçuları olacaq. Müəssisənin istehsal edəcəyi məhsulların 100%-i ixraca yönəldiləcək. Zavod məhsul buraxılışına 2018-ci ildən başlayacaq. Müəssisənin tikinti işlərində mərhələlərlə 100 nəfərədək adam çalışacaq. Yekun nəticədə 85 milyon dollarlıq layihə 200 yerli vətəndaşa iş verəcək. Zavodun işə düşməsi zamanı müəssisəyə lazım olan 80 nəfər kadr yenidən hazırlanacaq və işlə təmin ediləcək.

## İYUN AYINDA TƏBİİ QAZIN QİYMƏTİNDƏ ARTIM OLA BİLƏR



Gürcüstanın Su Təchizatı və Energetika üzrə Milli Tənzimləmə Komissiyası təbii qazın tarifinin qaldırılması haqqında yekun qərarı iyunun 20-də qəbul edəcək.

Qazın verilməsi, bölüşdürülməsi, buraxılışı və istehlakının mövcud tariflərinə yenidən baxılması məqsədilə SOCAR Georgia Gas və "Sakorqqaz" Milli Tənzimləmə Komissiyasına müraciət təqdim edib. Martın 1-də komissiya məsələyə birinci baxış keçirib.

Adıçəkilən şirkətlərdən başqa, "KazTransQaz – Tbilisi" qazpaylayıcı şirkəti də komissiyaya müraciət edib.

Milli Tənzimləmə Komissiyası bəyan edib ki, Gürcüstanda təbii qazın mövcud tariflərinin nəzərdən keçirilməsi vacibdir. Ona görə ki, 2005-ci ildən bu tariflər müzakirə olunmayıb.

Qeyd edək ki, təbii qazın istehlak tariflərinin azaldılması hələ 2012-ci ilin parlament seçkilərində "Gürcü arzusu"nun seçkqabağı vədlərindən biri idi.

2013-cü ildə tariflər həqiqətən də dəyişdi, lakin bu Energetika və Təbii Ehtiyatlar Nazirliyinin qərarı ilə baş tutdu. 2013-cü ilin martında "Neft və qaz korporasiyası" ümumi tarifi öz gəliri hesabına azaltdı. Bu qiymət dəyişikliyi istehlak tariflərində də əks olundu, onlar 5 tetri azaldı.

Hazırda təbii qazın 1 kubmetri Tbilisidə 45,62 tetri, regionlarda isə 40-50 tetridir.

## TƏMİZLƏNMƏK GÖZƏLDİR



Hacı BƏKİROĞLU
*kafkasli@mail.ru*

**Mən televizor izləməyi çox sevən biri deyiləm. Arada-sırada izləyirəm. Hələ-hələ reklamları izləməyi heç sevmirəm. Ona görə də maraqlandığım filmləri və ya proqramları internetdən izləməyi daha üstün tuturam ki, reklam izləməyim. Demirəm reklam pisdir. Yox elə anlaşılmasın. Reklam doğru və düzgün olduqdan sonra niyə də olmasın. Çünki reklam həmin şirkətin məhsulunu tanıdan üzüdür. Deyəcəksiniz bunun işi-gücü qurtarıb indi reklamları incələyir. Bu mövzuya toxunmam səbəbsiz deyil.**

Bu yaxınlarda diqqətimi çəkən bir reklam mövzusundan yola çıxaraq yazıma yön vermək qərarına gəldim. Bu bir yuyucu toz reklamı idi və reklamın sonunda "kirlənmək gözəldir" deyə bir ifadə işlənir. Mənə görə burda məhsulu tanıtmaqdan ziyadə insanların düşüncəsini qarışdırıb, şüuraltı bilgi aşılamağa və insanları pisliklərə yönləndirməyə çalışılmışdır. Bu reklamın oyunçusu da bir uşaqdır. Bunu da yaxşı bilir ki, uşaqlar televizorda gördükləri simaları öz qəhrəmanları halına gətirib onun etdiyi hərəkətləri etməyə çalışırlar. Bu reklamı izləyən körpələrimiz də istər-istəməz bu dırnaqarası qəhrəmanın etdiyini edərək çirkli yerlərdə oynamağa başlayacaqlar ki, bu da gigiyenik olaraq qəbuledilməzdir. Başqa bir yöndən baxsaq, əgər bu reklamı çəkənlər yuyucu tozu tanıtmaq istəsəydilər "kirlənmək" deyil, "təmizlənmək gözəldir" şüarını əsas alardılar. Mən isə bu reklam çarxından fərqli olaraq təmizlənmənin gözəlliyi və gərəkliliyi haqqında yazmaq qərarına gəldim. Çünki uca Allah Qurani-Kərimdə: "Ey iman edənlər! Namaza duracağınız zaman üzlərinizi, dirsəklərə qədər əllərinizi və başlarınıza sığal edib, hər iki ayağınızı topuğa qədər yuyun. Əgər qüsulsuz isəniz, yaxşıca yuyunaraq təmizlənin. Xəstə və ya səfərdə olsanız və ya biriniz dəstəmaz pozmaqdan gəlir və ya qadınlara toxunar (cinsi əlaqədə olar) da su tapa bilməzsəniz, o zaman təmiz bir torpağa yönəlin. Onunla üzlərinizə və əllərinizə sığal çəkin (Təyəmmüm edin). Allah, sizə hər hansı bir çətinlik çıxarmaq istəməz. Lakin O, sizi tərtəmiz etmək və üzərinizdəki neməti tamamlamaq istəyər ki, şükr edəsiniz. (Maidə 6) buyurmaqdadır. Həzrəti peyğəmbər (s.ə.s) isə hədisi şəriflərində "Mömin pis olmaz." (Buxari), "Hər şeyi yaxşıca təmizləyin! Təmizlik imana, iman da Cənnətə götürür." (Təbərani), "Təmizlik imanın yarısıdır." (Müslim) buyurmaqdadır. Ayət və hədislərdən də görüldüyü kimi təmizlik lazımdır, kirlənmək yox.

Bədən və ruh sağlamlığının təməl şərti təmizlikdir. İnsanın yeyib-içdiyi qidaların, geyindiyi paltarların, istifadə etdiyi əşyaların, içində yaşadığı evin və ətrafının pisliklərdən təmizlənməsi sağlam bir həyat üçün şərtdir. Təmiz insanın təbiəti gümrah, bədəni möhkəmdir. Hər gün murdar işlərlə məşğul olan insan çirklənər, bulanar. Bunlardan təmizlənməsi lazımdır.

Təmizlik, hər kəsin sevdiyi və rahatlıq, hüzur tapdığı bir işdir. Bunu ancaq, ağıldan nöqsanı olanlar, yaxud da heyvani duyğularına yenilən və tənbəllər sevməyə bilər. Hətta təmiz insanlar, bir-birini daha çox sevərlər. Bədənin təmizlənməsi, yavaş-yavaş mənəvi çirklərin də təmizlənməsinə gətirib çıxarar. Mənəvi pisliklərdən təmizlənincə də, insandakı heyvani duyğular zəifləyər və beləcə ruhun arzu etdiyi, xoşlandığı dəyərlər, gözəl xasiyyətlər ortaya çıxar. İnsan, mələk sifətlərinə bürünmüş, şeytani duyğulardan xilas olub, gözəl xüsusiyyətlərlə bəzənmiş olar.

Dilimizdə "Aslan yatdığı yerdən bəlli olur" şəklində bir deyim vardır. Bu sözdən də aydın olduğu kimi insan təmizliyə yaşadığı yerdən və ətrafından başlamalıdır. Bir cəmiyyətdə hər kəs öz ətrafını təmiz tutarsa, bu sayədə daha təmiz bir çevrəyə sahib olarıq.

Təmizlik həm sağlamlıq, həm də xarici görünüş baxımından çox əhəmiyyətli bir anlayışdır. Təmizliyimizə diqqət yetirmədikdə xəstəliklərə tutulma ehtimalımız da çox yüksəkdir. Həm sağlam olmaq, həm də daha gözəl bir mühitdə yaşamaq üçün təmizlik olmazsa olmazlarımız arasında olmalıdır. Təmizlik imandan gəlir fikri də təmizliyin əhəmiyyətini vurğulamaq baxımından nümunə olacaq bir fikirdir. Bu səbəblə hər vaxt təmizliyimizə diqqət yetirməmiz lazımdır. Uşaqlarımızı da kirliliyi təlqin edən sözlərdən, hərəkətlərdən və görüntülərdən uzaq tutaq.

**Təmiz, gözəl və sağlam bir həyat arzusu ilə...**



## TÜRKİYƏNİ QƏBUL ETMƏK İSTƏMƏYƏN AVROPANIN MƏQSƏDLƏRİ

Sahib MUSTAFA
sahib1975.sm@gmail.com

**Türkiyə ilə Avropa arasında uçurum get-getdə dərinləşməkdədir. Bu il aprel ayının 16-da Türkiyədə keçiriləcək referendumu "həzm" etmək istəməyən Qərb dünyası bu ölkəyə qarşı hər cür təzyiq vasitələlərini səfərbər etməkdədir. Ölkə konstitusiyasına ediləcək dəyişikliklərdən sonra daxili və xarici siyasətin əsas vektorlarını əlində cilovlayacaq Ərdoğan iqtidarını Avropa heç cür qəbullana bilmir. Artıq, ümumxalq səsverməsinin nəticələri haqqında baş sındırmağa da ehtiyac yoxdur. Çünki, Türkiyədə baş verən və Qərb dünyası tərəfindən idarə olunan olaylardan sonra türk xalqının nümayiş etdirdiyi milli birlik bunu deməyə əsas verir.**

Bir neçə gün öncə Berlinlə Ankara arasında yaşanan diplomatik böhran Almaniyanın sərhədlərini aşaraq Hollandiyaya da sıçradı. Avropada yaşayan türk vətəndaşlarını konstitusiyaya ediləcək dəyişiklər üçün "bəli" kompaniyasına çağrış çərçivəsində Türkiyə rəsmilərinin Köhnə qitə ölkələrinə səfərləri süni şəkildə əngəllənməkdədir. Ədiliyyə naziri Bəkir Bozdağın Almaniyada türk diasporası ilə planlaşdırılan görüşünün alman hakimiyyəti tərəfindən qadağan edilməsi deyilənlərə əyani sübutdur. Berlinin Türkiyəyə qarşı belə bir münasibəti yalnız nasist siyasətinin bir nümunəsi ola bilər. Bu haqda prezident Ərdoğan bəyanət vermişdir. Söz azadlığı, sərbəst toplaşma kimi demokratik dəyərlərdən dəm vuran Avropanın qabaqcıl ölkələrinin isə əsl niyyətlərinin nə olduğu düşünməyə əsas verir. Çox təəssüf ki, son dövrlərdə Almaniya, Avstriya və Hollandiyanın Türkiyəyə qarşı yürütdüyü siyasət irqçilik, islamofobiya və ksenofobiya elementləri ilə xarakterizə olunur. İlk öncə Türkiyənini xarici işlər naziri Mövlud Çavuşoğlunun təyyarəsinin Hollandiyaya enişinə bu ölkənin rəhbərliyi tərəfindən yasaq gətirilməsi, ardından da ailə və sosial siyasət naziri Fatama Betül Sayan Kayanın Rotterdam şəhərində Türkiyə Baş Konsulluq binasına buraxılmaması və "persona non grata" qismində ölkədən xaric edilməsi beynəlxalq diplomatik normaların çeynənməsi deməkdir. Düzdür, türk nazirlərin "Zanbaqlar ölkəsi"nin rəsmiləri ilə rəsmi görüşləri planlaşdırılmasa belə, onların ölkəyə buraxılmaması və ya xaric edilməsi diplomatiya etikası ilə bir araya siğmayan durumdur. Lakin, yaşanan böhranın əsl siması isə Hollandiyada yaxınlaşan parlament seçkiləridir.

Görünür son zamanlar Avropa ölkələri seçkiöncəsi kompaniyalarını Türkiyəyə nifrət proqramları üzərində qururlar. Bu il martın 15-də Hollandiyada keçiriləcək parlament seçkilərində uğur qazanmaq üçün ultrasağ meyilli "Azadlıq" partiyasının sədri Qert Vildersin siyasi texnologiyasını türklərə və islama nifrət taktikası üzərində qurması utancvericidir. Hazırki Baş nazir Mark Ruttein öz mövcud statusunu saxlamaq və Avropanın digər ölkələrində olduğu kimi Hollandiyada da artan ifrat milliətçi, islamofobistlərin səsini qazanmaq naminə nasist libasına bürünməsi bir rəzalət nümunəsidir. Üstəlik, Ankaranın Günbatandakı müttəfiqləri beynəlxalq terrorizmlə mübarzə adı arxasında çirkin siyasət fırlatmaqdadırlar. Türkiyə kimi güclü bir dövlətlə rəsmi səviyyədə əməkdaşlıq etməkdənsə öz ərazilərində PKK, FETÖ kimi terrorçü ünsürlərə sığınacaq verən Hollandiya, Almaniya və Avropanın digər sözdə demokratik ölkələrinin əsl siması göz qabağındadır.

**Ankara ilə ard-arda yaşanan diplomatik böhranlar, saxta və sözdə erməni soyqırımlarının tanınması Avropanın Türkiyəyə qarşı yürütdüyü planlı siyasətin bir parçası kimi də qəbul edilməlidir. Belə ki, Türkiyəni Avropa İttifaqının sərhədlərindən kənarda saxlamaq, onun yaxın prespektivdə bu quruma daxil olma ehtimalının üstündən birdəfəlik xətt çəkmək niyyəti səhv qiymətləndirilməməlidir. Martın 10-da prezident Ərdoğanın Moskvaya səfəri və Türkiyə ilə Rusiya münasibətlərinin artan dinamikası Ankaranın NATO-dakı müttəfiqlərinə əlavə qıcıq verir. Qeyd olunan məqamları nəzərə alsaq, Ərdoğan hakimiyyəti Türkiyənin xarici siyasətini təftiş etməyə və onun alternativ istiqamətdə inkişafı yollarını müəyyənləşdirməkdədir.**

## HOLLANDİYA-TÜRKİYƏ MÜNASİBƏTLƏRİNİN BƏZİ MƏQAMLARI

Bu gün dünyada tam bir ədalətsizlik baş alıb gedir. Ədalət adı altında irq, millət və din savaşı aparılır. Mən siyasətçi deyiləm və buna görə də mövzuya siyasi baxımdan yanaşmıram. Ancaq bir insan olaraq, bir müsəlman olaraq öz görüşümü dilə gətirmək istəyirəm.

Hər kəsin işinə burnunu soxan (ifadəmə görə qüsuruma baxmayın) Avropa bu gün tam olaraq maskasını çıxardı və qorxunc üzünü göstərməyə başladı. Son günlərdə olan hadisələr hər şeyi açıqca ortaya qoymaqdadır. Bu olanlar 15 iyul hadisəsini həyata keçirə bilmədiklərinin qisası kimi də ifadə oluna bilər. Çünki 15 iyulda həyata keçirə bilmədikləri çevrilişin qisasını Türkiyə iqtidarından almaq niyyətindədirlər və düşünürlər ki, beləliklə iqtidarı güvənsizliyə sürükləyəcək və xalqın gözündən düşürəcəklər. Bəs bunu etməkdə məqsədləri nədir? Mənim fikrimcə, bunun səbəbi Türkiyə iqtidarının İslam ölkələrinə edilən haqsızlıqlara qarşı çıxması və özünü hegemon sayan Avropaya zidd çıxmasıdır.

Hər zaman ədalətdən və insan haqqlarından danışan Avropa, xüsusilə də Hollandiya ilk öncə Türkiyənin Xarici İşlər naziri Mevlüt Çavuşoğlunun təyyarəsinin enməsinə icazə vermədi və ardından da Ailə və Sosial Siyasət Naziri Fatma Betül Sayan Kayanın Amsterdamdakı Türk konsulluğuna girişini qadağan etdi. Bunun bir diplomata edilməsinin nə qədər doğru olduğunu dəyərləndirməyi isə siyasətçilərə buraxıram. Digər bir yandan da həm Türkiyə, həm də Hollandiya NATO üzrə müttəfiq ölkələrdir. İşin maraqlı yönü də ordadır ki, nazir Fatma Betül Sayan Kayanın Şengen pasportu uyğulanan bütün Avropa ölkələrinə girişi qadağan edildi və buna heç bir NATO ölkəsi səs çıxarmadı. Bəs bu qadağalar niyə oldu? Çünki hər iki nazir o ölkədə yaşayan türklərlə görüş keçirəcək və 16 aprel tarixində baş tutacaq referendum haqqında çıxış edəcəkdilər. Avropa isə bu referendumun "bəli"qərarının baş tutmaması üçün əlindən gələni edəcək. Onu da qeyd edək ki, Avropa həmişə qorxu içində yaşayıb və elə yaşamağa da davam edəcək. Çünki Avropa bilir ki, bu referendumdan bəli sayı çox çıxarsa Türkiyə güclü bir vəziyyətə gələcək və Avropanın bir zamanlar "qara qitə"adlandırdığı Afrikada zülm etdiyi müsəlmanların haqqını tələb edəcək. İkinci bir qorxusu isə ikibaşlı siyasət oyununun üstünün açılması, əsil simasının ortaya çıxmasıdır.

Məhz bu səbəblə də Avropa hər zaman İslam ölkələri içərisində bir fitnə törədib və bununla da islam dinini bir terror, bir vəhşilik dini olaraq göstərməyə çalışıb. Amma, əlhəmdulillah, haqq heç zaman öz nurunu itirməyib. Bu gün də İslam ölkələrinin ümid qaynağı olan Türkiyəni hədəf aldı. Nə deyək, Allah Türkiyəni və İslam ölkələrini qorusun.

Hacı HACIYEV

## SİYASƏTÇİLƏR HOLLANDİYANIN QƏRARINA REAKSİYA VERDİLƏR

Hollandiyanın qərarını "qalmaqal" adlandıran Xarici İşlər naziri Mövlud Çavuşoğlu: "Hollandiyanın atdığı bu addımın əlbəttə bir qarşılığı olacaq" – deyib.

Avropa İttifaqı üzrə nazir Ömər Çelik şəxsi "Twitter" səhifəsindən verdiyi açıqlamada qeyd edib: "Bu addımın adı faşizmdir".

Daxili işlər naziri Süleyman Soylu bu addımı "kobud və nəzakətsiz" bir addım kimi dəyərləndirib.

Ədliyyə naziri Bekir Bozdağ və Maliyyə naziri Naci Ağbal verdikləri açıqlamada Hollandiyanın atdığı addımın qəbuledilməz olduğunu vurğulayıblar.

Almaniyanın paytaxtı Berlində türklərlə bir araya gələn Gənclər və İdman naziri Akif Cağatay



Kılıç Hollandiyanın qalmaqallı addıma imza atdığını deyib.

Prezident Aparatının sözcüsü İbrahim Kalın şəxsi "Twitter" səhifəsindən verdiyi açıqlamada bu addımın qəbul edilməz olduğunu qeyd edib.

## BEYNƏLXALQ ALƏM DƏ HOLLANDİYAYA ÖZ ETİRAZINI GÖSTƏRMƏKDƏ DAVAM EDIR

Hollandiyanın qalmaqallı mövqeyinə beynəlxalq aləm də öz reaksiyasını göstərməkdə davam edir.

Bəzi İraq, Misir və mavritaniyalı siyasi xadimlər və ekspertlər Hollandiyanın türkiyəli nazirlərə mane olmalarına reaksiya göstəriblər.

İraq dövlət başçısının sabiq müavini Tarık əl-Haşimi özünün "twitter" hesabında Hollandiyanın mövqeyinin totalitar rejimlərin rəftarı olduğunu bildirərək deyib ki, Türkiyə hökumətinin əsas qanundakı dəyişiklikləri xalqa izah etmək məqsədi ilə göstərdiyi fəaliyyətlər demokratikdir. Bəzi Avropa ölkələrində tətbiq edilən təzyiqlər isə ancaq totalitar rejimlərin rəftarları kimi izah edilə bilər.

İraqlı ekspert və analitik İyad Əd-Dıleşmi isə Hollandiyanın mövqeyi ilə Qərbin demokratiya və xalqın iradəsinə hörmət iddialarının saxtalığının ortaya çıxdığını qeyd edib.

Misirdə İnqilabın Gələcəyi Partiyasının lideri və sabiq prezident namizədi Eymen Nur da Hollandiya kimi demokratiya və azadlıqlara dəstək verdiyi iddiasını irəli sürən bir ölkənin bu cür rəftar ortaya qoymasını təəssüflə qarşıladıqlarını söyləyib.

Mavritaniyadakı 14 partiyanı birləşdirən Milli Demokratik və Birlik Forumunun rəhbərlərindən Ec Veled Eddi verdiyi açıqlamada Hollandiyanın qalmaqallı bu rəftarını, "Türkiyənin inkişafına mane olmaq üçün edilən qəribə bir əngəl" kimi dəyərləndirib.

Bəhreynli sabiq millət vəkillərindən Xalid Əbu Ammar isə bildirib ki, Türkiyəni İslam əleyhinə olan Avropa ilə qarşı-qarşıya qoymaq məqsədi ilə həyata keçirilən, ancaq Allahın izni ilə uğursuz olacaq bu rəftarlara qarşı Türkiyə ilə həmrəylik içindəyəm.

Hollandiyanın qalmaqallı rəftarına Sudandan da reaksiyalar göstərilib.

Sudan Alimlər Heyətinin sədri Məhəmməd Osman Saleh bildirib ki, Türkiyədə demokratiyanın gücləndirilməsi üçün göstərilən cəhdlər Avropada demokratiya deyə qışqıranları xoşbəxt etmədi.

Sudan Xalq Konqresi Partiyasının siyasi katibi Kamal Ömər də Avropa İttifaqı ilə BMT-ni Hollandiyanın düşməncəsinə ortaya qoyduğu bu rəftarına qarşı qətiyyətli mövqe göstərməyə dəvət edib.

## GÜRCÜSTANDA ON ƏN YÜKSƏKÖDƏNİŞLİ PEŞƏ

Gürcüstanda iş tapmaq, xüsusilə də gənclər üçün sadə məsələ deyil. Fridrix Ebert Fondunun araşdırmasına görə, gənclərin yalnız 19%-i tam, cəmi 7%-i isə yarım taariflə işləyir. Reytinq Milli Statistika Xidmətinin məlumatlarının təhlilinə əsasən hazırlanıb.

Ölkədə yüksəkmaaşlı peşələr az da olsa var. Ölkədəki on ən mənfəətli peşəsinin reytinqi belədir:

1.Maliyyə sahəsində çalışanların orta aylıq əməkhaqqı 1 690 lari təşkil edir. Bu sahə çox yaxşı inkişaf edib. Banklardan başqa, müxtəlif mikromaliyyə təşkilatları və onlayn kredit şirkətləri fəal şəkildə işləyirlər.

Əhali onların xidmətlərindən fəal şəkildə yararlanır. Məhz buna görə onluqda maliyyəçilər birinci yeri tuturlar.

2. Dövlət idarəçiliyində çalışanların orta aylıq əməkhaqqı 1 342 lari təşkil edir.

3. Nəqliyyat və rabitə sektorunda çalışanların orta aylıq gəliri 1 189 laridir. Bütün dünyada olduğu kimi, bu fəaliyyət növü Gürcüstanda da həm gəlir, həm də məşğulluq baxımından ən fəal və tələb olunan sahələrdən biridir.

4. İnşaat sektorunda çalışanların orta aylıq gəliri 1 182 laridir.

5. Elektrik enerjisi, qaz və su paylanması sahəsinin əməkdaşları ayda 1 117 lari qazanırlar. Orta aylıq gəlirin bu sahədə nisbətən yüksəkliyi iqtisadiyyatın bu sahəsinin strateji cəhətdən mühümlüyü ilə izah olunur. Bu sahədə işçi qüvvəsinə tələbat yüksəkdir. Belə ki, energetikanın rolu günü-gündən artır, son zamanlar yeni elektrik stansiyalarının tikilməsi hesabına enerji istehsal edən obyektlərin sayı artmaqdadır.

6. Dağ-mədən sənayesi işçilərinin orta aylıq əməkhaqqı 1 047 lari təşkil edir. Bu sahədə çalışanların sayı az olsa da, əhəmiyyəti, xüsusilə də ixrac nöqteyi-nəzərindən böyükdür. Dağ-mədən sənayesi ölkənin ixrac məhsulları – ferroərintilər və mis konsentratları istehsalı ilə birbaşa bağlıdır.

7. Daşınmaz əmlak əməliyyatlarında fəaliyyət göstərənlərin aylıq qazancları 975 laridir. Bu sektorda məşğulluq kifayət qədər yüksəkdir. Satılan mənzillərin çoxluğunu, regionlardan şəhərə təhsil və iş dalınca gələnlərin kirayəyə tələbatını nəzərə aldıqda bu sahədə məşğulluğun yüksək olması təbiidir.

8. Balıqçılıqla məşğul olanlar ayda 845 lari qazanırlar. Bu sahədə əsasən dənizsahili regionların əhalisi məşğul olur, bu sektorda çalışanların sayı çox deyil Gürcüstanda idxal balıq məhsulları üstünlük təşkil etdiyindən bu sahənin məhsuldarlığı aşağıdır.

9. Səhiyyə sahəsində çalışanların aylıq əməkhaqqı 844,6 laridir. Ölkədə tibb sahəsinə olan tələbat böyükdür. Lakin həkimlərin gəlirləri qeyri-bərabər olub, bir neçə yüz laridən bir neçə min lariyədək dəyişir.

10. Xidmət sektorunda – mehmanxana, restoran və gözəllik salonlarında işləyənlər orta hesabla ayda 785 lari qazanırlar.

Ən az maaş alan işçilər yenə də təhsil sistemində çalışanlardır. Onların orta aylıq gəlirləri cəmi 483 lari təşkil edir.

Qeyd etmək lazımdır ki, reytinqdə maaşlar gəlir vergisi çıxılmadan öz əksini tapdığından, uyğun olaraq real qazanc da göstərilənlərdən 20% aşağıdır.

Hazırladı Elsevər ELDAROĞLU

## GÜRCÜSTAN VARLI VƏ YOXSUL ÖLKƏLƏR REYTİNQİNDƏ 108-Cİ OLUB

Aylıq maliyyə jurnalı Global Finance-ın versiyası üzrə 2016-cı ildə dünyanın ən varlı və ən yoxsul 189 ölkəsi arasında Gürcüstan 108-ci olub.

Nəşr siyahını ümumi daxili məhsulun adambaşına düşən miqdarı haqqında Beynəlxalq Valyuta Fondunun məlumatları əsasında tərtib edib.

Gürcüstan reytinqdə müvafiq olaraq 114-cü və 116-cı yerləri tutan Ermənistan və Ukraynadan öndədir. Gürcüstanın digər yaxın qonşuları olan Azərbaycan (71-ci yer), Türkiyə (63-cü yer) və Rusiya (52-ci yer) daha varlıdır.

Qatar, Lüksemburq, Makao, Sinqapur, Bruney, Küveyt, İrlandiya, Norveç, BƏƏ və San-Marino ən varlı dövlətlərin onluğunu təşkil edirlər.

Nəşrin qeydinə görə, bu ölkələrin bəzisinin varlı olmasına karbohidrogen ehtiyatları kömək edir. Reytinqdəki digər beş ölkə dünya kapitalını cəlb edən maliyyə sektorunun inkişafı və vergilərin nisbətən aşağı olması hesabına varlanıb.

Makao sərvətini kazino və turizm hesabına yaradan yeganə dövlətdir. Qeyd olunur ki, siyahıda yer alan varlı ölkələr əhalinin azsaylılığı kimi bir əlamətə malikdirlər.

Global Finance-ın siyahısında Mərkəzi Afrika Respublikası, Konqo Demokratik Respublikası, Burundi, Liberiya və Niger ən yoxsul ölkələr olublar.

Reytinqdə ABŞ 13-cü, Almaniya 19-cu, Böyük Britaniya 27-ci, Fransa 28-ci yeri tutub.

## HOMOSOVETUKUSLARLA HOMOTEXNİKUSLARIN QOVŞAĞINDA

***Deyir: "yemək yeyərkən əlimdə telefonum və ya planşetim, yanımda kompüterim olmasa elə bilirəm qarnım doymur, sanki xörəyi çörəksiz yeyirəm".***

Bəli, homotexnikusların nümayəndəsi olan dostum bu cümləni beləcə deyir və özünün texnika dünyasının göbəyindən olmasını da hər kəsə açıq-aşkar elan edir. O, bu sözləri yalandan və ya şişirdərək, gəlişi gözəl söz olaraq söyləmir. Dostumuz reallığı tam olaraq bircə cümləyə sığışdırıb və homosovetukusların hər hansı nümayəndəsinin "texnika çıxardanın evi dağılsın, internet çıxardanı gordan gora dığarlansın" cümləsinə də inanıram ki, nadir hallarda xala xətirin qalmasın məsələsi naminə əhəmiyyət verərək əks etdirir. Adlarını çəkdiyimiz hər iki tərəfin kimlər olması hər iki nəsildən olan oxucularımız üçün gün kimi açıq və aydındır. Çünki, hər kəsin evində, ətrafında, yaxınında hər iki nəslin nümayəndələri mövcuddur. Beləliklə, onlar bir-birilərini yaxşı tanıyırlar, lakin, əksər hallarda bir-birilərini anlamaqda olduqca çətinlik çəkirlər. Heç bir tərəfi qınamağa haqqımız olmadığı qənaətindəyəm. Bununla məqsədimin hər iki tərəfin könlünü xoş tutmaqdan ibarət olmadığını da nəzərlərinizə ərz etmədən növbəti fikrə keçmək istəmirəm. Yəqin ki, siz dəyərli oxucularım nə üçün üçüncü şəxsdə danışdığımı, özümü sözünü etdiyim məsələdən qıraqda tutduğumu düşünəcəksiniz.

Ol səbəbdən mövzunun qırağı ilə hərəkət etmədəyəm ki, mən və yaşıdlarım – əfvinizə sığınaraq özümüzü doxsanıncı illərin uşaqları adlandırıram – sözünü etdiyim cəbhələrin heç birinə aid deyilik. Biz nə sovet suyu içənlərdən, nə də birbaşa texnikanın ağuşuna doğulub, gözünü onunla açanlardanıq. Bunu da bəlkə müəyyən mənada, müəyyən məqamlarda xoşbəxtlik adlandırmaq olar. Ancaq, çətinlikləri də az deyil. İki nəslin qovşağında olan bizlər onların bəzən qəliz, bəzən duzlu-məzəli qovğalarının arasında qalmalı oluruq. Hər şeydən öncə hamımızın yekdilliklə qəbul etməli olduğumuz bir nüans var ki, dünya, dövlət, sistem və ya adını nə qoyursunuz qoyun, yəni ümumilikdə hər şey, homotexnikusların tərəfindədir və birinci nəsli də mədəni şəkildə və hətta mədəni zorakılıqla onların cərgəsinə keçməyə dəvət edirlər. Bu isə təəssüf ki, dildə deyilib, qəzetdə oxunacaq qədər, mediyada izlənəcək qədər sadə proses deyil. Heç şübhəsiz ki, bu proses yalnız keçmiş sovet məkanında deyil, dünyanın, hətta kainatın bütün zərrələrində bu və ya digər şəkildə baş verməkdədir.



Mən uzaq getmək istəməyərək elə gördüklərimdən, müşahidə etdiklərimdən yazmaq fikrindəyəm və bununla sizin də mənimlə razılaşmanızı zəmanət altına alacağıma ümid edirəm. Yuxarıda da bəhsini etdiyim iki nəslin qovğasında kifayət qədər maraqlı məqamlar meydana çıxır və bəzən həyəcanlı, bəzən gülməli mənzərələrlə qarşı-qarşıya qalırıq. Mən öz adıma "Sovet hökumətinin atasına rəhmət" sözünü gün içində ən az bir-iki dəfə eşidirəm. Mən də atasına da, özünə də rəhmət, gedişi olsun, qayıdışı olmasın deyirəm, ürəyimdə. Yüksək səslə söyləməməyişimə səbəb isə, o hökumətin ruhundan-filan qorxmağım deyil, könlündə hələ də sovet sevdası olanların könlünü incitməməkdir. Deyə bilərsiniz, sən onu nə görübsən, nə bəyənməyəsən. Və ya durub indi qonağı olduğumuz zəmanənin mənfi keyfiyyətlərini sadlayaraq, sandıqdakı bütün pambığı ortalığa töküb, yelə verə bilərsiniz. Ancaq, nə olur olsun, mənim üçün vətənimin hürriyəti daha ümdədir. Siz buna da bir cavab tapacaq, indi də asılı olduğumuz yüz şey var deyəcəksiniz. Mən isə yenə də, inadkar uşaq həvəsi ilə azad ölkəmin azad, müstəqil tarixində addımlamağa davam edəcəm... Aranızda dəstəkçilərimin də kifayət qədər olacağına şübhə etmirəm. Homosovetukuslardan da, homotexnikuslardan da səsimə səs verənlər olacaq...

Söhbətdən çox yayınmadan şahid olduğumuz nəsillər savaşının bir-iki anına yenə də toxunaraq, rəsm etmək istədiyimiz vəziyyətə son fırça toxunuşları etmək istəyirəm. İndi evlərdən, ailələrdən başlayıb ağlımıza gələ biləcək hər yerdə – iş yerlərində, ictimai yerlərdə iki nəslin qarşıdurması ilə sıx-sıx rastlaşmaq mümkündür. Ən sadə misallardan biri olaraq məktəbi qeyd etmək istəyirəm. Çünki, bura iki nəslin ən çox ünsiyyətdə olduğu məkanlardan biridir. İstənilən yerdə, o cümlədən məktəbdə şagirdlərin də, müəllimlərin də hüquq və vəzifələri hərfi-hərfinə müəyyənləşdirilmiş olduğu üçün əslində ortada çətin bir şey yoxdur. Necə deyərlər hər kəs üstünə düşənə etməyə çalışmaqdadır. Lakin, buna hər zaman müvəffəq olunmur, çünki homotexnikusların homosovetukuslar tərəfindən ələ alınması nə yazıq ki, asan deyil. Elə anlar olur ki, bu nəsillər bir-birinin gözündə nəinki böyük və ya kiçik, hətta yadplanetli kimi görünə bilirlər. Onların bir-birində qəbul edə bilmədiyi, eyni zamanda qibtə etdiyi şeylər olduqca çoxdur... Müəllimlərdən, böyüklərdən tez-tez "indiki uşaqlar od-alovdurlar", "indiki uşaq hər şeyi bilir", "indikiləri qandırmaq mümkün deyil" kimi cümlələr eşidirik. Əslində anlaşmaq üçün yollar mövcuddur, lakin birincilərin üsulu ikincilərə, ikincilərin anlamaq şəkli isə birincilərin hövsələsinə, alışdığı gerçəkliklərə uyğun gəlmir. Bu da məktəbdə də, başqa yerlərdə də narazılıqlara, anlaşılmazlıqlara səbəb olur.

***Hamının bir-birindən şikayətçi olub, dilə gəldiyi hal-hazırda içində olduğumuz zaman dilimində baş verənlərə görə heç birimiz suçlu, günahkar deyilik. Hər kəs öz zamanın övladıdır və hər kəsin öz zamanını sevmək haqqı var. Homosovetukusların şikayəti isə əslində yeni zamana girməkdən yox, öz zamanlarından uzaqlaşmaqdan qaynaqlanır...***

Afayət AFİQ

## GÜRCÜSTANDA YENİ PATURUL XİDMƏTİ FƏALİYYƏT GÖSTƏRƏCƏK

Yol hərəkəti qaydalarını pozanlar sürücülük vəsiqəsindən məhrum ola bilərlər. Yeni qaydaya görə, hər avtomobilə 100 bal verilir və hər qayda pozuntusuna əsasən bu hesabdan 5-dən 20-dək bal çıxılır. Hesabında balı bitmiş sürücülər yenidən imtahan verməli olacaqlar, bəzilərinə isə imtahan vermək qadağan olunacaq.

Hazırda ölkədə milyona yaxın maşın qeydiyyatdadır. Yeni sistemə görə, islaholunmaz sürücülər ictimai nəqliyyatı yalnız altı aydan sonra idarə edə biləcəklər.

Yeni qaydaya görə ən yüksək cəriməni kefli sürücülər ödəyəcəklər. bundan əlavə, onlar yenidən bir də sürücülük hüququ ala bilməyəcəklər.

# CƏMİYYƏTİMİZİN TANIMADIĞI TANIŞLARI

**Müzakirə olunan mövzu real faktlara əsaslanır, heç bir xəyali fikirlərdən qaynaqlanmır.**

İlk öncə məqalənin adı "Cəmiyyətimizin tanımadigi tanışlar" adından başlayaq. Mən əminəm ki, əgər Gürcüstanda müsəlmanların yaşadığı bölgələrdə sorğu keçirilsə insanların coxu belə bir idarənin varlığından xəbərsiz olacaq, bir idarə haqqında əgər məlumat yoxdursa, böyük ehtimalla məntiqi sonluq olaraq coxunun onun fəaliyyətindən də xəbəri olmayacaq.

Bu sayda cəmiyyətin tanımadığı tanışlardan olan Gürcüstan Müsəlmanları İdarəsi ilə tanış olacayiq. Əsas mövzuya keçməmişdən öncə, oxucularımıza bir balaca məlumat vermək istəyirəm. Gürcüstan Müsəlmanları İdarəsi 2011-ci il iyun ayında qeyydiyatdan keçmiş hüquqi təşkilatdır. Xatırlatmaq istəyirəm ki, qurumun yaradılmasına qədər Gürcüstan müsəlmanlarının dini məsələləri Qafqaz Müsəlmanlar İdarəsi tərəfindən həyata keçirilirdi. Təbii ki, yerli müsəlmanlar üçün bu idarənin yaradılması Qafqaz Müsəlmanları İdarəsi tərəfindən birmənalı qarşılanmadı. Bunun siyasi tərəflərinə də toxunmayacam, çünki bizim əsas məqsədimiz yaşadığmız cəmiyyətin problemlərini üzərə çıxarmaq və həllinə çalışmaqdır.

Gürcüstan Müsəlmanları İdarəsinin yaradılmasının arxasında nə səbəb olursa, olsun onun fəaliyyəti bizim üçün, cəmiyyətimiz üçün görəcəyi işlər daha önəmlidir. Gürcüstanda yaşayan müsəlmanlər olaraq bizim üçün də belə bir qurumun fəaliyyətdə olması və onun səlahiyyətlərinin qanunla çərçivələnməsi sevindirici haldır.

İdarənin qeydiyyatdan keçərkən sənədlərdə əks olunan əsas məqsədləri və görəcəyi işlər aşağıdakılardır:

- Gürcüsdanda dini işçilərin təyin edilməsi və azad olunması;
- Gürcüstan müsəlmanlar cəmiyyətində dini məclislərin təşkili;
- Seminarların, konfransların, müzakirələrin aparılması;
- Xeyriyyə işləri;
- Dini maarifləndirici kitabların tərcümə olunması və təqdim olunması və s.
- Məscidlərin təmir-bərpa işləri və yenilərinin tikilməsi.

Müsəlmanlar üçün yaradılan idarənin bu cür işləri həyata keçirməsi təbii haldır.

Bəlkə də coxlarına bundan sonra söyləyəcəyim fikirlər nankorluq kimi gələ bilər və deyə bilərlər ki, dini mövzularda yığıncaqlar seminarlar kecirirk,dini məqalələr çap etdiririk, dini məsuliyyət daşıyan şəxslər kimi müvafiq orqanlara cavab veririk.

Düzdür, bu işlərin hamısı görülür, buna görə də öz sağolmuzu bildiririk. Ancaq baxaq, görək cəmiyyətdə olan problemlərin həlli üçün görülən işlər, çəkilən zəhmətlər nə qədər uyğundur. Məni maraqlandıran bir məsələ var ki, bu məqsədlər qarşıya qoylarkən aşağıda qeyd edəcəyim faktorlar nə qədər nəzərə alınıb:

- cəmiyyət üçün dini anlayışın nə olması;
- dini problemlərin hansı cəmiyyətə və ya cəmiyyətin hansı təbəqəsinə aid olması;
- problemlərin haradan və kimlərdən qaynaqlanması;

Mənim şəxsi fikrimdir ki, sadaladıqlarım nəzərə alınmayıb. Bunun məntiqi sonluduğudur ki, siz, 70 faizi heç kitab oxumaqla maraqlanmayan cəmiyyət üçün kitab, məqalə çap etdirirsiz, dini təhsili olan insanlara konfranslar, yığıncalqar keçirilir, həmin insanlar üçün sizin dediklərin-iz bezikdirici təkrardan başqa bir şey deyil, dini təbliğat üçün insanları cənnət-cəhənəm ilə qorxudan bir fikirə sahib adamları vəzifələrə təyin edirsiz, onlar üçün vəzifə ancaq yas məclislərində iştirak etmək və cümə namazları qıldırmaqdan ibarətdir.

Bizim cəmiyyət üçün din rəhmətə gedən üçün imkan oldu-olmadı dəm-dəsgahlı süfrə açmaqdır. Bizim üçün din mollanın oxuduğu Quranın qiymətini onun cibinə basılan pulla qiymətləndirməkdir.

Bu problemlərin həllindən başlamaq lazımdır. Necə deyərlər üzünü bəzədiyimiz evin içərisində səhv düşüncələrdən əziyyət çəkən müsəlman bacı-qardaşlarımız yaşayır, onların dərdi bizim də dərdimiz olmalıdır. Onda deyə bilərik ki, gördüyümüz işi Allah rizası üçün görürük.

Təkcə bu mövzuda deyil, ümumiyyətlə bizim cəmiyyət onun kimlər tərəfindənsə müzakirə olunmasını, onun fəaliyyətinin qiymətləndirməsini və onların fəliyyəti barəsində tənqidi fikir yürüdülməsini özünə təhqir kimi qəbul edir və ya bu fikirlərin başqasının maraqlarına xidmət etdiyini düşünürlər. Amma yaxşı olardı ki,bunlardan nəticə cıxardaraq səhvlərimizi düzəldəydik.

Ancaq təəsüf hissi ilə bildirmək istəyirəm ki, mənim yazdıqlarım da şəxsiyyətimə görə müzakirə olunacaq, dolayı yolla mənim fikirlərim heç kimə lazım olmayacaq.

Cəmiyyət üçün yaradılan idarənin fəaliyyəti sadəcə dini bayramlarda olmamalıdır, onun işçiləri gündəlik məsələlərdə də fəal iştirak etməlidirlər. İdarənin fəaliyyətinin belə nəticəsini ilk illər onun təcrübəsizliyi ilə əlaqələndirmək olardı, ancaq artıq 6-cı ildir fəaliyyət göstərir. Fikrimcə, müəyyən faydalı və planlı işlər görmək üçün bu yetərli zamandır.

Necə olur ki idarənin ümumi nəzarət etdiyi və idarənin dini məsələlər üzrə təyin etdiyi insanların fəaliyyət göstərdiyi yerlərdə dini tədbirlər, dini anlayışlar fərqli olur. Misal üçün yaşadığım Qardabani regionunun kəndlərində fərqli dini adət-ənənələr mövcuddur və heç birinin də əsaslı izahı yoxdur.

Bir müsəlman və insan olaraq deyə bilərəm ki, əgər belə davam edərsə, bir müddətdən sonra onsuz da maddi baxımdan əziyyət çəkən insanlar çıxış yolunu "molla" fəaliyyətində görüb bu işə keçəcək və bu bizim cəmiyyətə Sovet İtifaqının vurduğu ziyandan da ağır ziyan vuracaq. Onu heç nəylə kompensasiya etmək mümkün olmayacaq, çünki itirlən dəyərlər pulla kompensasiya olunmur.

Sonda xatırlatmaq istəyirəm ki, müzakirə ümumi mənzərəni əks etdirir və heç bir şəxsi-qərəzlik məqsədi daşımır. Din xadimlərini regionlara, kəndlərə dəvət edirəm, gəlin, səhv yola düşən cəmiyyətimizə düzgün yol göstərin.

Elnur XƏMMƏDOV

# NOSTALJİ YAŞANTILAR İŞIĞINDA

Bu məqaləmdə mən nostalji hisslərden danışmaq istəyirəm.Elə düşünməyin ki, mən özüm də nostalji hisslərə qapılmışam. Əsla! Buna mənim yaşım da əl vermir. Və böyüklər demişkən mən hələ dünənki uşağam. Ancaq mən bu hisslər, hadisələr haqqında böyüklərimizdən və ya internet, televiziya vasitəsilə məlumat əldə edirəm. Hər insan öz keçmişi üçün darıxır, böyüklərimizin dediyinə görə keçmişdə yaşamaq, pul qazanmaq daha asan imiş. Gecə yatanda sabah nə yeyəcəm, ailəmi necə dolandıracam, evə necə pul gətirəcəm haqqında düşünmürlərmiş. Hər şey daha ucuz, daha sərfəli imiş. Doğrudur, indiki dövrümüzün də daha üstün yönləri var, ancaq müqayisə edəndə böyüklərin o zamandan daha çox məmnun qaldıqları bəlli olur. Bəziləri həmin nostalji hissləri yenidən yaşamaq istəyirlər. Bəs nostalji və ya nostalgiya nədir?

Bu termin ilk dəfə isveçrəli alim J.Hoffer tərəfindən elmə daxil edilib. Hoffer nostaljini içində şeytani səbəblər olan xəstəlik adlandırırdı. Çünki, insanlar nostalji hisslər keçirərkən bəzən stres, peşmançılıq və bir sıra mənfi duyğular hiss edirlər. Buna görə də nostalji sözünün kökü "geriyə dönmək", "acı" sözlərindən gəlir. Daha sonralar alimlər bunun bir xəstəlik deyil, əksinə bizi insan edən duyğu olduğunu iddia etdilər. Hər insanın keçmişi həm acı, həm də şirin xatirələrlə doludur. Biz arxaya dönüb baxdığmız zaman acıların keçmişdə, geridə qaldığını görüb gələcəyə daha əmin addımlarla irəliləyirik.



Zaman keçdikcə, zamanə dəyişdikcə böyüklər daha tez-tez arxaya baxırlar, daha tez-tez o dövrlə bu dövrü muqayisə edirlər, nostaljik hisslərə daha sıx-sıx qapılırlar. Onların dediyinə görə o vaxt böyüklərə hörmət, abır-həya indikinə nisbətən daha çox imiş. Hətta deyirlər ki, müəllimlərə hörmət də indikindən qat-qat çox imiş. Müəllim demişkən, onlar öz məktəb vaxtlarından, o dövrdə oktyabryat, pioner və komsomol sıralarına necə qəbul olunmalarından ağızdolusu danışırlar. Hər gün yaxalarına döş nişanı, boyunlarına qalstuk taxdıqları zaman, komsomola keçərkən komsomol biletini əllərinə götürdükləri zaman yaşadıqları həyəcanı, içdikləri andı fəxarətlə xatırlayırlar. Bütün bunları biz köhnə filmlərə baxdığmız zaman da görə bilərik. Onlar öz zamanlarından elə maraqla, elə həsrətlə danışırlar ki, insan həqiqətən də o dövrə getmək, böyüklərin yaşadığı keçmiş zamana səyahət etmək istəyir. Doğrudur mən o dövrün şahidi olmamışam, mənə görə yalnız öz yaşadığım, texnika ilə təmin olunmuş bir müasir dövr mövcuddur.

...Lakin, vaxt gələcək belə nostalji hisslər mənim də qəlbimə dolacaq. Dönüb arxaya baxanda ətrafım özləmlərlə, xatirələrlə dolacaq. Və həmin zamanlarımdan mən də gələcək nəsillərə bəhs edəcəm, mən də nostaljiyə qapılıb, keçmişimdə xatirələrə çevrilmiş zamandan ağızdolusu danışacağam...

Aytac ELXAN

# TƏHSİL NAZİRLİYİ MƏKTƏB EKSKURSİYALARININ RƏSMİ SİYAHISINI TƏQDİM EDƏCƏK

Gürcüstan Təhsil və Elm Nazirliyi ölkə məktəbləri üçün ekskursiya obyektlərinin karaloqu üzərində işləyir.

Birinci mərhələdə siyahıya ekskursiya-dərslərin keçirilməsi üçün tövsiyə edilən yüzə yaxın təşkilat (muzey, idman müəssisəsi, teatr və s.) daxil ediləcək.

Bir qədər əvvəl təhsil naziri Aleksandr Cecelava məktəblilərin tənqidi və sərbəst düşünməsinin inkişafına kömək məqsədilə məktəblərdə təhsilin daha müasir və maraqlı olması fikrini səsləndirmişdi.

Nazirin fikrinə görə, azad dərslər, o cümlədən də şagirdlərin əylənməsinə və istirahətinə yardım edən və öyrədici olan ekskursiyalar bu istiqamətin bir hissəsi olmalıdır.

Təşəbbüs barədə danışan nazir qeyd edib ki, ekskursiyalar şagirdlərin sadəcə gəzintisi, diqqətəlayiq tarixi yerlərə baş çəkməsi olmamalıdır. Nazir deyib: "Məqsədimiz bu ekskursiyaların yalnız kilsədə şam yandırılması və toyuq budu yeyilməsi ilə məhdudlaşdırılmamasına nail olmaqdır. Ekskursiya həm dərs, həm də əyləncə olmalıdır. Biz azad dərslərin bir hissəsi olan ekskursiya proqramları üzərində işləyirik. Biz pedaqoqlara kömək etməyə çalışırıq və toyuq budu yeməyə görə yox, müəllimlərin fəallığına görə pul ödəməyə hazırlaşırıq".

# VİZALARIN MƏHDUDLAŞDIRILMASI İNDEKSİNDƏ GÜRCÜSTAN 68-Cİ PİLLƏYƏ YÜKSƏLİB

İl ərzində Gürcüstan vətəndaşlarının dünya üzrə vizasız yerdəyişmə imkanları daha da artıb. VHenley & Partners şirkəti illik İndeksində dünyanın 219 ölkə və ərazisinin viza qaydalarını təhlil edir.

Gürcüstan İndeksdə 68-ci yeri tutub. Keçən il Gürcüstan bu siyahıda 71-ci pilləni tuturdu. Ümumilikdə, gürcü pasportu ilə vizasız səyahət imkanlarında müsbət irəliləyiş özünü göstərir. Gürcüstan vətəndaşları 2015-ci ildə 61, 2016-cı ildə 67, 2017-ci ildə isə 69 ölkəyə vizasız səyahət edə biliblər.

# MOLLA PƏNAH VAQİF – 300

***Bu il Azərbaycanın klassik lirik şairi Molla Pənah Vaqifin anandan olmasının 300-cü ildönümüdür.***

***Əlli il bundan öncə, 1968-ci ildə Vaqifin anadan olmasının 250 illiyi ilə əlaqədar tanınmış gürcü şairi Şota Nişnianidzenin redaktorluğu ilə Tiflisdə "Merani" nəşriyyatı tərəfindən 1968-ci ildə "Vaqif" adlı kitab işıq üzü görmüşdür. Kitabın rəssamları O. Cişkariani və T. Mirzaşvilidir. Bu kitaba ön sözü Tiflisdə boya-başa çatan, sonralar Lomonosov adına Moskva Dövlət Universiteninin professoru olmuş mərhum Əziz Şərif yazmışdır. Molla Pənah Vaqifin yubileyi ərəfəsində Azərbaycan ictimaiyyətinin, ümumiyyətlə, vaqifsevərlərin marağını nəzərə alaraq həmin ön sözü tərcümə edərək sizin ixtiyarınıza verirəm.***

***Mirzə Məmmədoğlu***

***Vaqif təxəllüsü ilə tanınan Molla Pənah orta əsrlərdə Azərbaycanın lirik şairləri arasından ən populyardır. O, Azərbaycan poeziyasının inkişafı tarixində yeni səhifə açmış və özünün ən böyük sələflərindən biri olan, klassik şeirin əvəzsiz ustası Məhəmməd Füzuli ilə (1494-1556) bir sırada dayanmışdır.***

Dahi Nizami Gəncəvidən (1141-1209) sonra Məhəmməd Füzuli və Molla Pənah Vaqif orta əsrlər Azərbaycan ədəbiyyatının iki zirvəsidir. Onların yaradıcılığı milli poeziyanın dar məhdudiyyətlərini aşaraq Yaxın Şərqin mülkiyyətinə çevrilmişdir.

* * *

Vaqifin həyat və yaradıcılığı barıədə çox şey məlum deyildir. Onun anadan olduğu tarix 1717-ci il hesab edilib. Azərbaycanda, Salahlı kəndində (indiki Qazax rayonunda) anadan olmuşdur, məsciddə yerli dini mədrəsədə oxumuşdur. Öz zamanına görə kifayət qədər təhsil almışdır. Doğma dilindən başqa fars və ərəb dillərində sərbəst şəkildə danışa bilirdi. Fəlsəfə, riyaziyyat, astronomiya, tibb və elmin digər sahələri ilə tanış idi.

Feodallar arasında silahlı toqquşma və daimi ixtilaf nəticəsində dinc təsərrüfat əməyi pozulurdu, bir çox ailə başqa yerdə sığınacaq axtarmağa məcbur olurdu.

Vaqif öz doğma kəndində mədrəsə açmış və pedaqoji fəaliyyətinə görə ona molla adı verilmişdir. Təxminən 1759-60-cı illərdə Vaqif ailəsi ilə Azərbaycanda ən nüfuzlu, ən güclü xanlıq hesab olunan Qarabağa köçmüşdür. Onun mərkəszi yüksək dağlıq yerdə salınan, tamamilə yeni şəhər olan, 1750-ci ildə Pənah xan tərəfindən əsası qoyulan qala-qəsr Şuşa idi.

İlk öncə Vaqif Tərtərbasar kəndində məskunlaşıb, mədrəsə açdı. Şair heç də burada sən deyən, yaxşı yaşamırmış, halbuki, bir neçə mənbəyə görə, Qarabağın yeni hakimi İbrahimxəlil xan bura köcüb gələnlərə qarşı lütfkarlıq göstərirmiş.

Tezliklə Vaqif yaşamaq üçün Şuşaya köçür. O, burada bir şair və bir alim olaraq məşhurlaşdı. 1769-1770-ci illərdə onu saraya dəvət edirlər. Savadına, həyat təcrübəsinə görə müdrikləşən, iş görən və enerjili Vaqif tezliklə xanın ən yaxın məsləhətçisinə çevrilir. Vaqifin həyatından bizə məlumat verən demək olar ki, bütün müəlliflər onu böyük dövlət xadimi kimi xarakterizə edirlər. Xarici siyasət sahəsində qonşu xanlıqlarla, Rusiya ilə siyasi əlaqə yaradan, Gürcüstan çarı ilə hərbi-müdafiə əlaqələrinin təşəbbüsü ona məxsusdur.

XVIII əsrin ikinci yarısında bütün Zaqafqaziya, o cümlədən Qarabağ da böyük sınaqlar qarşısında dayandı. Xanın vəziri İran təcavüzü təhlükəsindən xanlığı xilas etmək üçün yeni-yeni yollar axtarırdı. Bu təhlükə xüsusən 1794-cü ildə, İranda Ağa Məhəmməd şah Qacar hakimiyyıti ələ keçirəndə və özünü şahənşah bəyan edəndə daha da artdı.

80-ci illərdə Gürcüstan çarlığı Rusiyanın himayədarlığını qəbul etdi. Bu hadisə ilə əlaqədar İbrahimxəlil xan öz vəziri Vaqiflə birlikdə Tiflisə gəlmişdir. Vaqifin Gürcüstanda olması onun bir çox şeirində öz parlaq əksini tapmışdır.

Gürcüstanın və Azərbaycan xanlığının Rusiyaya yaxınlaşmasından qəzəblənən İran despotu zərbə vurmağa hazırlaşırdı. 1795-ci ilin yayında Ağa Məhəmməd şah Qacar Zaqafqaziyaya doğru hərəkətə keçdi. İranın çoxsaylı qoşunu Araz çayını keçərək Qarabağa yetişdi. Qala-qəsr uzun çəkən mühasirəyə tab gətirdi. Düşmən üçün o, alınmaz oldu. Tarixçilər qeyd edirlər ki, çox qocalmış Vaqif şəhərin müdafiəsində fəal iştirak edib. O, döyüş əməliyyatına bilavasitə rəhbərlik edirmiş. Qacar mühasirəni götürməyə və Qarabağ hüdudlarını tərk etməyə məcbur oldu. Geri qayıdan şah Qacar bütün qəzəbini Gürcüstanın üstünə tökdü. Bütün şəhəri vəhşicəsinə darmadağın etdi və öz düşərgəsinə çəkildi. Yeni hücum üçün daha əlverişli vaxt seçdi. Tiflisin alınması zamanı 1795-ci ildə Zaqafqaziyanın üç dilində çalıb-oxuyan böyük şair Sayat Nova qətlə yetirildi.

II Yekaterina Zaqafqaziyaya öz qoşununu göndərdi, amma onun ölümündən sonra I Pavel qoşunu geri çağırdı və Azərbaycan xanlığı İran despotu ilə üzbəüz təkcə qaldı.



Qacar bu əlverişli məqamdan istifadə etmək qərarına gəldi və 1797-ci ilin yayında Qarabağa qarşı yeni hücum təşkil etdi. Aclığa düçar olmuş camaat saysız-hesabsız düşmənin öhdəsindən gəlməyə hazır deyildi. İbrahimxəlil xan şəhəri tərk etdi və Dağıstanda özünə sığınacaq tapdı.

Qacar on bir minlik qoşunla Şuşanı mühasirəyə aldı və heç bir müqavimət olmadan onu ələ keçirdi. Xanın vəziri şair Molla Pənahı tutaraq, zindana saldılar və onun barəsində ölüm hökmü çıxartdılar. Cəzadan öncəki gün Qacar qətlə yetirildi. Ölüm intizarında olan şair azad olundu.

Şahın ölümündən sonra Qarabağda hakimiyyətsizlik yarandı. İran qoşunu ruhdan düşdü. Ümumixalq çaşqınlığından, anarxiyadan Məhəmməd bəy Cavanşir istifadə etdi və Şuşada hakimiyyəti ələ keçirdi.

Yeni hakim özünün sələfi olan xana sədaqətli bir insana ümid bəsləyə bilməzdi və təbii ki, Vaqifin simasında təhlükəli əleyhdarını görürdü. Eyni zamanda şair camaat arasında böyük hörmətə malik idi və Məhəmməd bəy Cavanşir onu başından rədd etmək qərarına gəldi. Bəzi tarixçilər və Vaqifin tərcümeyihalı onu qeyd edir ki, yeni xanın guya ki, Vaqifin gözəl arvadına qarşı xüsusi rəğbəti var idi. Bütün bunlar kəskin toqquşmaya qədər gətirib çıxartdı, güclər nisbəti qeyri-bərabər idi. Nəhayət, hakimiyyəti zorla ələ keçirən Məhəmməd bəy Cavanşirin öz niyyətini həyata keçirdiyi məqam yetişdi. Sarayın Vaqifə qarşı kin-küdurət, nifrət hissi bəsləyən əyanlarının dəstəklədiyi Məhəmməd bəy Cavanşirin əmri ilə şairi öz oğlu Əli bəylə birlikdə qayadan uçuruma atdılar.

Şairin faciəli ölümündən sonra onun evini dağıdıb, əlyazmalarını məhv etdib yandırdılar. Sonralar böyük nəğməkar və birinci vəzirin cənazəsini böyük hörmət-izzərlə dağın gözəl mənzərəli yamacında dəfn etdilər. Onun məzarı ziyarət yerinə çevrildi. Camaat əsrlər boyu müdrik və ölməz nəğməkarın səmimi məhəbbətini qəlbində yaşatmışdır.

* * *

Molla Pənah Vaqif Azərbaycan ədəbiyyatı tarixində çevriliş etmiş, xalq-aşıq şeirinin "heca" vəznini ona gətirərək qanuniləşdirmişdir. Vaqifin şeirlərinin əksəriyyəti qoşma formasında yazılmışdır. Vaqif Azərbaycan poeziyasında qoşma formasını başa çəkən və xalq danışıq dilini ona yaxınlaşdıran cəsarətli novator idi. Bu şeirlərin poetik toxunuşu və əksetdirmə vasitələri yüksək bədii səviyyəyə qaldırılmışdır. Şair çox halda rədifdən, daxili ritmlərdən, nəqarətlərdən, cəsarətli təşbehlərdən istifadə edir ki, onlar da sual zamanı şifahi-müsiqili təəssürat yaradırlar.

Bu yeni forma təkcə şifahi xalq ədəbiyyatında, aşıq poeziyasında deyil, eləcə də yazılı ədəbiyyatda öz yerini bərqərar etdi.

Vaqif poeziyanı xalqın geniş kütləsi üçün anlaşıqlı etdi. O, canlı simalar ilə xalq dilinin zəngin məqamlarını daha da zənginləşdirdi. Vaqif həyatın sevincini, şirinliyini və sevgisini tərənnüm edirdi. Qeyri-dünyəvi poetik lirası ideal gözəlliyi vəsf edən klassik şairlərin – Füzuli və onun ardıcıllarının əksinə olaraq Vaqif canlı, dünyəvi, real olaraq vücuda gətirilmiş və həyat eşqi ilə dolu qadın siması yaratdı.

Bu motivləri Vaqif, şübhəsiz, lirik xalq poeziyasından almışdı, bu da özünün nikbinliyi ilə, həyata fəal münasibəti ilə fərqlənirdi.

Vaqif tərəfindən təsvir olunmuş gözəllər oxucunun qarşısında Azərbaycan qadınının canlı siması olaraq özünün bütün milli xüsusuyyətləri və əlamətləri ilə dayanır. Şair sevgili qadının gözəlliyini və ona qarşı hədsiz məhəbbətini təsvir etmək üçün bədii təşbehlərdən bol-bol istifadə edir. Məhəbbət mövzusu Vaqifin lirikasında əsas mövzudur və bir baxımdan o, yeknəsəq və monoton olmalıdır. Lakin, yalnız bircə baxımdan. Həqiqətdə isə Vaqifin lirikası təşbehlərlə elə zəngindir, axtarılıb tapılan dəqiq məqamlarla elə doludur ki, şairin aşiqanə lirik şeirlərində eyni mövzuda təkrarlanan və tərənnüm edilən gözəlləri tapmaq çətindir. Hər bir şeirin müstəqil bədii və emosional dəyəri vardır. Məğzinin yeniliyi, gözlənilməz simaları, xüsusən mənəvi əhvasl-ruhiyyəsi ilə insanı heyrətləndirir.

***Azərbaycan xalqı özünün böyük şairinin vətənpərvərlik ruhlu və dərin fəlsəfi fikirlərlə yoğrulan şeirlərini iki əsr müddətində məhəbbətlə qoruyub saxlayır. Bu gün xalqa estetik zövq verən bütün hər şey xüsusi dəyərə malikdir.***

Əziz ŞƏRİF
Filologiya elmləri doktoru,
Moskva Dövlət Universitetinin professoru

## «TARİXİ ÖYRƏN, TƏDQİQATÇI OL» ADLI YENİ LAYİHƏYƏ START VERİLİR

Gürcüstan Təhsil və Elm Nazirliyi DİN ilə birlikdə "Tarixi öyrən, tədqiqatçı ol" layihəsini həyata keçirir.

Məqsəd şagird və tələbələr arasında tədqiqatçı vərdişlərinin və tənqidi düşüncənin inkişaf etdirilməsi, habelə DİN-nin arxiv materiallarının populyarlaşdırılmasıdır.

Layihə mart ayında başlayır və ilkin mərhələdə onda beş məktəbin şagirdlərindən və bakalavr pilləsinin beş tələbəsindən təşkil olunmuş beş qrup iştirak edir. Komissiya üç finalçını müəyyənləşdirəcək, onlardan hər biri rəmzi hədiyyə alacaq, üç qalib qrupa isə müvafiq prizlər veriləcək.

Ən yaxşı tədqiqat DİN arxivinin "Arxiv xəbərləri" jurnalında çap ediləcək. Layihə barədə qısa sənədli film də hazırlanacaq.

Layihəni təhsil nazirinin müavini Liya Qiqauri və daxili işlər nazirinin müavini Şalva Xutsişvili təqdim ediblər.

## ABİTURİYENTLƏR İMTAHAN MƏŞQLƏRİNDƏN KEÇƏ BİLƏCƏKLƏR

Milli İmtahanlar və Qiymətləndirmə Mərkəzi (NAEC) abituriyentlərə yeni goNaec layihəsinə qoşulmağı təklif edir.

BeNaec GeCat onlayn testetmə layihəsi gürcü dili və ədəbiyyatı, riyaziyyat, xarici dil, tarix fənlərini əhatə edir. Bir fənn üzrə maksimum üç dəfə sınaqdan keçmək olar. Bir sınaqdan keçmənin qiyməti 10 laridir.

@Naec layihəsi isə abituriyentlərə və magistraturaya daxil olmaq istəyən namizədlərə diaqnostik sınaq təklif edir. Bu, İmtahanlar və Qiymətləndirmə Mərkəzinin keçirdiyi ümumi qabiliyyət və ümumi magistr üzrə imtahanların tam mənada təqlididir.

İştirakçılar imtahan bölmələrində bütün mövcud imtahan prosedurları üzrə sınaqdan keçəcəklər. Layihədə iştirak etmək üçün qeydiyyat martın 27-də başlayır.

İştirakçılar nəticələrlə sınaq başa çatdıqdan sonra dərhal tanış ola biləcəklər.

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

15 mart 2017-cı il
№005 (43)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | “იენი იოლი” საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci tarixdən nəşr olunur

## ANAR RAFİQOGLUNUN YENİ UĞURU

Martın 5-də və 12-də Tbilisidəki Atoneli teatrında Heydər Əliyev adına Tbilisi Azərbaycan Peşəkar Dram Teatrının gənc aktyoru Anar Rafiqoğlunun “Zarafat kolleksiyası-4” stend up tamaşasının təqdimatı keçirilib.

Anar Rafiqoglu “Zarafat kolleksiyası”nın bundan əvvəl baş tutan tamaşalarından fərqli bir ampulada tamaşaçılar qarşısında çıxış edib. Qeyd edək ki, “Zarafat kolleksiyası”nın ssenarisi həmişəki kimi gənc aktyorun özünə məxsus olub.

Təxminən iki saata yaxın davam edən “Zarafat kolleksiyası-4” tamaşaçılara gülüş dolu xoş anlar yaşadıb. Gənc aktyorun məişətimizdəki, adət-ənələrimizdəki çatışmazlıqları qamçılayan satirik üslubu, siyasi, ictimai, mədəni həyatımızda gedən proseslərə ustalıqla yanaşması və bütün bunları incə yumorla təqdim etməsi dəfələrlə tamaşaçıların alqışlarına səbəb olub. Anar Rafiqoğlu Stend up janrının xüsusiyyətlərindən doğan bir üslubla bütün tamaşa boyu tamaşaçı ilə canlı ünsiyyət qurmağa, ifasını onlarla əlaqədə sərgiləməyə nail olub, özünün ikibaşlı replikaları, yerində işlədtdiyi atmacaları,



eyhamları vasitəsilə az qala hər bir tamaşaçını özünün tərəf-müqabilinə çevirməyi bacarıb.

“Zarafat kolleksiyası-4”ün martın 5-də keçirilən tamaşasının fasiləsində tamaşaçılar tanınmış repçi “Nəğd pul” qrupunun solisti Afiq Novruzovun ifasında bir neçə repə qulaq asmağa da müvəffəq olublar.

Gənc aktyor Anar Rafiqoglunun çıxışının uğurlu alınmasını teatra toplaşan insanların çoxluğu da sübut edib. Belə ki, yer tapa bilməyənlər ayaqüstündə duraraq və ya pillələr üzərində oturaraq ikisaatlıq tamaşanı seyr ediblər.

## GÜRCÜSTANIN GƏNC LİDERLƏRİNƏ HƏSR OLUNMUŞ FOTOSƏRGİ KEÇİRİLİB



Martın 9-da paytaxt Tbilisidə Fabrika sərgi salonunda Gürcüstanın gənc liderlərindən bəhs edən fotosərgi təşkil edilib. Bununla da Amerika Birləşmiş Ştatları hökuməti tərəfindən Gürcüstan gənclərinə yardım məqsədi ilə başladılan bir aylıq sosial kompaniya başa çatıb.

Müsabiqəyə Gürcüstanın fəal gəncləri və onların fəaliyyətini əks etdirən fotolar təqdim edilmişdi. Kompaniya çərçivəsində keçirilən foto müsabiqədə iştirak edən 300-dən artıq gənc arasından 25 qalib müəyyən edilib və onların fəaliyyətini canlandıran fotolar müsabiqənin finalında Fabrika sərgi salonunda nümayiş etdirilib.

Qaliblər sərgi zamanı mükafatlandırılıblar. Qaliblərə Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfiri Yan Kelli sertifikat təqdim edib. “Bu proqram gənc nəslin öz imkanlarını nümayiş etdirmələri üçün və öz cəmiyyətlərinə daha çox fayda vermələri işində kömək edir” – deyə səfir bildirib və Gürcüstan gəncləri ilə birlikdə bu tədbirdə iştirak etməkdən məmnun olduğunu bildirib.

Sevindirici haldır ki, 25 qalib iştirakçı arasında azərbaycanlı gənc aktyor və qəzetimizin əməkdaşı Anar Rafiqoğlunun A. Əliyeva tərəfindən çəkilmiş fotoşəkli də yer alıb.

## ALMANİYA KLUBUNA TÜRK BAŞ MƏŞQÇİ TƏYİN OLUNDU



Türkiyəli mütəxəssis Tayfun Korkut Almaniyanın “Bayer” futbol klubunun baş məşqçi postunda Rocer Şmidti əvəzləyib.

Rocer Şmidt Leverkuzen təmsilçisi Bundesliqanın 23-cü turunda Dortmundun “Borrusiya” klubuna 2:6 hesablı məğlubiyyətindən sonra istefaya göndərilib.

Tayfun Korkutla müqavilə bu mövsümün sonuna qədər imzalanıb. Xatırladaq ki, o, 2016-cı ilin yayından dekabradək “Kayzerslautern” klubuna rəhbərlik edib.

“Bayer” 23 turdan sonra 30 xalla 10-cu yerdədir. Qeyd edək ki, bundan sonra Tayfun Korkutun baş məşqçilik edəcəyi komanda Çempionlar Liqasının 1/8 final oyununda da öz meydanında Madridin “Atletiko” klubuna 2:4 hesabı ilə məğlub olmuşdu.

## GÜRCÜ YAZIÇISI DÜNYANIN ƏN YAXŞI QADIN MÜƏLLİFİ SİYAHISINA DÜŞÜB



Gürcü nasiri və jurnalisti Anna Kordzaya-Samadaşvili Nyu-York İctimai Kitabxanasının (The New York Public Library) beynəlxalq qadınlar gününün bayram edilməsi ərəfəsində tərtib etdiyi dünyanın ən yaxşı qadın yazıçısı reytinqinə daxil olub.

Siyahıya bütün dövrlərin və xalqların cəmi 365 məşhur qadın yazıçısı düşüb. Onların arasında Ceyn Ostin, Şarlotta Bronte, Hanna Arendt, Marqaret Etvud, Elfride Yelinek kimi ünlü söz ustaları da var.

Bir çox kitab və nəşrlərin müəllifi olan Anna Kordzaya-Samadaşvili “Berikoba”, “Mən Marqaritayam” topluları, “Şuşanikin uşaqları”, “Qağayını kim öldürdü”, “Oğruların hökmdarı” kimi ədəbi hekayə və romanları ilə məşhurdur.

Yazıçı 6 fevral 1968-ci ildə Tbilisidə doğulub. 1989-cu ildə Tbilisi Dövlət Universitetinin filologiya fakültəsini bitirib.

Müxtəlif gürcü nəşrlərinin redaktoru olub. Berlinin İBA kitab agentliyinin reportyoru işləyib. “24 saat” nəşrinin jurnalisti kimi fəaliyyət göstərib. 2005-ci ildən “İsti şokolad” jurnalı ilə əməkdaşlıq edir.

## DAVİD KİPİANİ ADINA İDMAN KİTABXANASI AÇILIR



Gürcüstan Milli Parlament Kitabxanasının üçüncü korpusunda David Kipiani adına idman kitabxanası açılacaq.

Kitabxananın mətbuat xidmətindən bildirilib ki, ona Gürcüstanın idman və gənclər naziri Tariel Xeçikaşvilinin baxması gözlənilir. Milli Kitabxana və Milli Güləş Federasiyası arasında memorandum imzallanacaq.

“Sənədə əsasən, Milli Kitabxana federasiyanı kitabla təmin edəcək. Kitablar idman zallarında yerləşdiriləcək, onlar idmançıların məlumatlarının artmasına yardım edəcək. Federasiya isə idman kitabxanasını öz nəşrlərilə təchiz edəcək.

İdman kitabxanasında Milli Kitabxananın fondlarında mühafizə olunan ədəbiyyat və idmana dair ən yeni nəşrlər toplanacaq” – Milli Kitabxanadan bildirilib.

## GÜRCÜSTANIN McDONALD'S RESTORANI AVROPADA ƏN YAXŞI OLUB




Dünyanın nəhəng restoranlar şəbəkəsi McDonald’s-ın Mərkəzi Avropa ofisi 2016-cı ilin araşdırmalarından sonra McDonald’s Georgia-nı regionda ən yaxşı adlandırıb. McDonald’s dünyanın yüzdən çox ölkəsində fəaliyyət göstərir və hər il müxtəlif meyarlar əsasında bazarı qiymətləndirir. “Bu dəfə mükafat Avropanın xüsusi bazarı kimi Gürcüstana çatdı. Avstriya, Belçika, Portuqaliya, Finlandiya kimi ölkələr arasında ən yaxşı olmaq bizə əlavə məsuliyyət həvalə edir və gələcək inkişaf üçün böyük stimul verir” – McDonald’s Georgia-nın baş direktoru Tenqiz Kapanadze vurğulayıb.

Yaxınlarda Tbilisidə 30 restorana xidmət etməyə hesablanmış və Cənubi Qafqazda ən böyük olan McDonald’s loqistik mərkəzi açılıb. Şirkət məhsullarını Avropanın ən yaxşı müəssisələrindən alır və istehlakçıya ən yüksək keyfiyyətli ərzaq təklif edir.

Xatırladaq ki, Gürcüstanda ilk McDonald’s restoranı 1999-cu ildə meydana çıxıb və hazırda 11 resoranı birləşdirir. Bu il şirkət Kutaisidə daha bir restoran da açacaq. McDonald’s Georgia-da 930 nəfər çalışır və şəbəkə hər gün 15 min nəfərə yaxın qonağa xidmət edir.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı”

*Redaktor*:
Afiq Muxtaroğlu
*Yayım Direktoru*:
Hacı Bakiroğlu

*ÜNVAN:* Qardabani şəh. Kolxoz küç, 4
*TEL:* (+995) 595 92 25 70
599 54 12 92
*EMAİL:* yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.